Günəş Şərqdən doğur!

№ 157 (5438), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

2 sentyabr 2021-ci il (cümə axşamı)



## Mənzil bazarında vəziyyət dəyişib

"Satışların böyük əksəriyyəti kredit üzərindən aparılır"

(səh.13)



## İctimai nəqliyyatda COVİD-19 pasportu tələb olunmayacaq

Prezidentin köməkçisi: "Oktyabrın 1-dək iki dozadan birini qəbul etmiş şəxslər iaşə obyektlərinə daxil ola biləcəklər"

Sentyabrın 1-dən etibarən iri ticarət mərkəzlərinə, mehmanxanalara, kafelərə, restoranlara və digər ictimai iaşə obyektlərinə giriş üçün vətəndaşlardan mütləq qaydada COVID-19 pasportu tələb olunur.

(səh.2)

## Müdafiə Nazirliyində kadr dəyişikliyi baş verib



Mətbuat Xidmətinin rəisi vəzifəsi Anar Eyvazova həvalə edilib

(səh.5)

# ÜST Azərbaycanı məktəbləri açmağa çağırdı

## Ölkəmizdə tədrisin ənənəvi qaydada başlaması daha məqsədəuyğundur



(səh.9)

# Dünya peyvənd güzəştlərinə keçir

...Bizdə nə həvəsləndirici, nə də təşviqedici kampaniyalar var



(səh.6)

### Ermənilər gözlənilmədən Zəngəzurdan qaçır

Əhalinin sayı burada cari ilin birinci yarısında təxminən 700 nəfər azalıb

(səh.2)

### Ermənilər bu gün təxribat törətməyə cəhd edəcəklər

Səməd Seyidov: "Oturub fikirləşsinlər, təxribata əl atmaq istəyirlərsə, layiqli cavablarını da alacaqlar"

(səh.3)

### Qarabağdakı bütün erməni postlarını dağıtmalıyıq

Politoloq: "Əmin olun, ondan sonra Ermənistan və Rusiya "status" kəlməsini dilə gətirməyəcək"

(səh.8)

### 41 nəfər ölüb

Azərbaycanda daha 3 845 nəfər COVID-19-a yoluxub

(səh.12)

# "Qarabağ fatehi və onun dəmir yumruğu"

## Ərəb ölkələrinin KİV-lərində məqalə dərc olunub




**"Prezident İlham Əliyev tarixə siyasi arenada və döyüş meydanında Zəfər qazanan görkəmli siyasətçi kimi düşüb".**

"Report" xəbər verir ki, bu fikirlər Misirin "Aldiplomasy, "Əl Dövlə", Əlcəzairin "Əl Hərir", həmçinin İraq, İordaniya, Küveyt KİV-lərində dərc olunmuş şərqşünas Həşim Məmmədovun "Qarabağ fatehi və onun dəmir yumruğu" sərlövhəli məqaləsində yer alıb.

Müəllif qeyd edib ki, işğalçı Ermənistanla 44 günlük müharibəni Qələbə ilə başa çatdıran Azərbaycan işğaldan azad etdiyi ərazilərində quruculuq işlərinə start verib. Bu şanlı Zəfərin əsas amili isə xalqın və hakimiyyətin birliyidir. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev işğaldan azad olunan rayonlarda Azərbaycan bayrağını qaldırıb, torpaqların düşmən tapdağından qurtulması missiyasının uğurla başa çatdığını, ermənilərin viran qoyduqları şəhər, kənd və qəsəbələrin tezliklə cənnətə çevriləcəyini bəyan edib.

Məqalədə bildirilir ki, müharibə zamanı minlərlə gənc könüllü olaraq torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda döyüşə getməyə can atıb. Onlar inanırdılar ki, hər zaman xalqa arxalandığını söyləyən Ali Baş Komandanın müdrik siyasəti nəticəsində işğal olunan torpaqlarımız geri alınacaq. Azərbaycan Ordusunun şanlı Zəfəri bütün dünyada, o cümlədən İslam aləmində də böyük əks-səda doğurdu.

"İlham Əliyev Azərbaycan xalqının xilaskarı, ümummilli lider Heydər Əliyevin müdrik siyasətini uğurla davam etdirdi və torpaqların işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmini missiyasını müvəffəqiyyətlə başa çatdırdı", - yazının sonunda vurğulanıb.

# İctimai nəqliyyatda COVİD-19 pasportu tələb olunmayacaq

## Prezidentin köməkçisi: "Oktyabrın 1-dək iki dozadan birini qəbul etmiş şəxslər iaşə obyektlərinə daxil ola biləcəklər"



**Sentyabrın 1-dən etibarən iri ticarət mərkəzlərinə, mehmanxanalara, kafelərə, restoranlara və digər ictimai iaşə obyektlərinə giriş üçün vətəndaşlardan mütləq qaydada COVID-19 pasportu tələb olunur.**

Oktyabrın 1-dək iki dozadan birini qəbul etmiş şəxslər COVID-19 pasportunu təqdim etməklə ictimai iaşə obyektlərinə daxil ola biləcəklər.

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, oktyabrın 1-dən etibarən isə yalnız hər iki vaksin dozasını qəbul etmiş şəxslər iri ticarət mərkəzlərinin, mehmanxanaların, kafelərin, restoranların və digər ictimai iaşə obyektlərinin xidmətlərindən yararlana biləcəklər.

Şahmar Mövsümov, həmçinin qeyd edib ki, açıq havada fəaliyyət göstərən restoran və kafelərə giriş üçün vətəndaşlardan COVID pasportu və ya immunitet sertifikatı tələb edilmir. İctimai nəqliyyatda isə COVID-19 pasportu ilə bağlı hansısa məhdudiyyət yoxdur, sərnişinlərdən yalnız tibbi maskadan istifadə etmək tələb olunur.

# Ermənilər gözlənilmədən Zəngəzurdan qaçır

## Əhalinin sayı burada cari ilin birinci yarısında təxminən 700 nəfər azalıb

**Ermənistanın regionlarında yaşayan əhali sürətlə azalmağa davam edir.**

"Şərq" hit.az-a istinadən bildirir ki, erməni mənbələrində qeyd olunan 1 iyul 2021-ci il tarixinə aid statistik məlumatları əsasında bəlli olur ki, əhalinin sayında ən çox azalma Zəngəzurda qeydə alınıb. Belə ki, Zəngəzurda əhalinin sayı cari ilin birinci yarısında təxminən 700 nəfər azalıb. Zəngəzurun inzibati mərkəzi sayılan Qafanda sözügedən rəqəm 400 nəfərə bərabər olub.

Göstərilən rəqəmlər onsuz da əhalisinin ümumi sayı üç milyona çatmayan Ermənistan üçün olduqca təhlükəli həddədir. Belə ki, Zəngəzur vilayəti üçün bu göstərici təxminən əhalinin 0,5 faizindən çoxunu təşkil edir.

Ermənistanın Azərbaycanla sərhəd Tavuş vilayətində də analoji vəziyyət hökm sürür. Burada cari ilin birinci yarısında əhalinin sayı 600 nəfər azalıb.

# Tələblər ancaq qapalı məkanlara aiddir

## Açıq havada yerləşən restoranlarda COVID-19 pasportu tələb edilmir

**Açıq havada yerləşən kafe, restoran, çay evləri və digər ictimai-iaşə obyektlərində vətəndaşlardan covid pasportu tələb olunmur.**

Bunu Trend-ə açıqlamasında Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Nurlan Əliyev deyib. O, bildirib ki, tələblər ancaq qapalı məkanlara aiddir.

*Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq qərarına görə, bu gündən yaşı 18-dən yuxarı olan şəxslər ictimai iaşə müəssisələrində, mehmanxanalarda və iri ticarət mərkəzlərində qapalı məkanda göstərilən xidmətlərdən yalnız COVID-19 pasportu olduğu halda istifadə edə bilərlər.*

# "Rusiya lazımi addım atmalıdır"

## Cümşüd Nuriyev: "Sərhədlərin müəyyənləşməsinin uğurla aparılacağını proqnozlaşdırıram"




**Dünən Rusiya və Azərbaycan Xarici işlər nazirlərinin müavinləri Andrey Rudenko və Xələf Xələfov arasında telefon danışığı olub. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin Mətbuat xidməti məlumat yayıb.**

Ətraflı fikir mübadiləsi zamanı Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin 10 Noyabr 2020 və 11 Yanvar 2021-ci il tarixli razılaşmalarının icrası, ikitərəfli və regional gündəliyə aid bir sıra aktual məsələlər müzakirə edilib.

**Rusiya ilə olan münasibətlərlə bağlı Azərbaycan tərəfindən lazımlı addımlar atıldığını söyləyən siyasi elmlər doktoru, professor, politoloq Cümşüd Nuriyev "Şərq"ə bildirib ki, rəsmi Moskva bəzən ikili standartlarla çıxış edir və ölkəmiz ermənilərin tərəfini tutduqları üçün onların səmimiyyətinə inanmır:**

"Nəzərə alaq ki, Xələf Xələfov həm peşəkar diplomatdır, həm də uzun müddət Rusiya ilə sərhədlərin delimitasiya və demarkasiyası üzrə komissiyada çalışıb və böyük işlər görüb.

X.Xələfov bu işə qarışırsa, Azərbaycanla-Ermənistan arasındakı sərhədin delimitasiya və demarkasiyanın uğurla başa çatacağını proqnozlaşdırmaq mümkündür. Ancaq Rusiya lazımi addımlar atmalıdır. Sabah qondarma rejim "müstəqilliyinin" 30 illiyini qeyd edir. Ümumiyyətlə, bu, absurddur.

Rus sülhməramlıları belə bir mərasimin keçirilməsinə icazə verirsə, deməli, təxribat Rusiya tərəfindən hazırlanıb. İkincisi, Ermənistan parlamentinin üzvləri bu mərasimdə iştirak edəcəklərini bəyan ediblər. Əslində rus sülhməramlıları onları Xankəndiyə buraxmamalıdır. Çünki heç 20-30 min erməni yoxdur, hansı müstəqillikdən danışır və nəyi qeyd edirlər? Rusiyanın buna göz yumması ağlasığmazdır.

Azərbaycan müdafiə naziri öz mövqeyini bildirdi, amma xarici işlər nazirimiz də mövqeyini ortaya qoymalıdır. Daha doğrusu, Azərbaycan bəyanat verməlidir, eyni zamanda parlamentin də müvafiq komissiyaları öz fikirlərini bildirməlidir. Qeyd olunmalıdır ki, ölkəmizə qarşı təxribatlar hazırlanır və bu təxribatın gizli müəllifləri Rusiyanın təhlükəsizlik orqanları, icraçıları isə azərbaycanlıların qanına əli batmış Araik Arutyunyan və onu kimilərdir.

Bu adamlar təcili həbs edilməlidir. Rus sülhməramlıları belə bir tədbirin keçirilməsinə razılıq verəcəksə və Ermənistan parlament nümayəndələri orada iştirak edəcəklərsə, Azərbaycan rus sülhməramlılarının bölgədə iştirakının müvəqqəti olmasına belə yenidən baxmaq məcburiyyətində qalmalıdır. Ölkə mediası məsələnin üzərinə getməlidir.

Parlament, siyasi partiyalar, QHT-lər var. Onların hər biri dövlətimizin yanında olmalıdır. Prezident də çox gözəl bilir ki, xalq onunla birlikdədir. İmkan verməməliyik ki, dövlətimizin maraqları kimlərinsə iqtisadi maraqlarına qurban verilsin".

**Yeganə Bayramova**

# Ermənilər bu gün təxribat törətməyə cəhd edəcəklər



## Səməd Seyidov: "Oturub fikirləşsinlər, təxribata əl atmaq istəyirlərsə, layiqli cavablarını da alacaqlar"

**Bu gün "Dağlıq Qarabağ Respublikası"nın yaranmasından 30 il ötür. "Dağlıq Qarabağ Respublikası" 1991-ci il sentyabrın 2-də elan edilib. Qondarma rejimin özünün adlandırdığı kimi Artsax Respublikası beynəlxalq hüquqa əsasən Cənubi Qafqazda dənizə çıxışı olmayan və Ermənistan Respublikası, Rusiya Federasiyası və Erməni Diasporunun hərbi, siyasi və maliyyə dəstəyi ilə qurulub.**

Qondarma Respublika BMT-yə üzv olan heç bir dövlət tərəfindən müstəqilliyi tanınmayan keçmiş dövlətdir.

Rəsmi olaraq 10 noyabr 2020-ci ildə üçtərəfli atəşkəs bəyannaməsinə əsasən, qondarma rejimin çox hissəsinə Azərbaycan Respublikası suveren nəzarəti bərpa edib, bir hissəsinə isə Rusiya sülhməramlı qüvvələri nəzarət edir.

**44 günlük müharibədə ermənilərin 30 il müddətindəki bütün xülyalarının paramparça olduğunu deyən Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov "Şərq"ə söyləyib ki, Ermənistanın daxilindəki qüvvələr, o cümlədən xaricdəki erməni diasporu hələ də revanşist ideyalarla yaşayır.**

Deputatın qənaətincə, ermənilər hansısa formada gərginliyin artmasını arzulayırlar: "Həmçinin istəyirlər ki, Azərbaycan tərəfinin yaratdığı reallığı dəyişdirsinlər. Ona görə də bir neçə istiqamətdə fəaliyyətə keçiblər. Əsas istiqamət təxribatlardır. Məhz provokasiyaları həyata keçirirlər ki, guya, Qarabağ məsələsinin bitmədiyini dünya ictimaiyyətinə təqdim etsinlər. Ancaq münaqişə bitib, artıq "Dağlıq Qarabağ Respublikası" yoxdur. Azərbaycan ərazi bütövlüyünü bərpa edib, dəvətimizlə sülhməramlılar bölgədədirlər.

Ermənilər zaman-zaman sərhədlərdə təxribatlara əl atır, bəyanatlar verir, xarici ölkələrdəki əlaltılarını işə salırlar ki, onlar da müxtəlif çıxışlar etsinlər. Onların fəaliyyəti öz missiyasını yerinə yetirməyə-yetirməyə ölmüş Minsk qrupunu dirçəltmək cəhdidir. Minsk qrupu həll olunmuş məsələnin nəyini həll edəcək?".

*S.Seyidov sentyabrın 2-si ilə bağlı erməni qüvvələrinin hansısa təxribat törətməyəcəklərinə inanmadığını vurğulayıb:* "Ancaq bir məsələni də xüsusi qeyd etmək istəyirəm: Hansı provokasiyaya əl atacaqlarsa, özlərinə problem yaradacaqlar. Ermənilərin provokativ davranışı onların üzsüzlüyündən irəli gəlir. Azərbaycan dövləti olaraq hər bir məsələyə ciddi reaksiya veririk, bundan sonra da verəcəyik. Oturub fikirləşsinlər, təxribata əl atmaq istəyirlərsə, layiqli cavablarını da alacaqlar".

**Yeganə Bayramova**

# Ceyhun Bayramov iranlı həmkarıyla nə danışıb?

## Tofiq Zülfüqarov: "Tərəflərin regiondakı vəziyyətlə bağlı fikir mübadiləsi aparması normaldır"



**Dünən Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının Xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan arasında telefon danışığı baş tutub. C.Bayramov iranlı həmkarını xarici işlər naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.**

C.Bayramov Azərbaycan və İran arasında dərin tarixi köklərə əsaslanan dostluq və əməkdaşlıq münasibətlərinin, geniş spektrli ikitərəfli əməkdaşlıq gündəliyinin mövcudluğunu vurğulayıb. Nazir iki ölkə tərəfindən bir sıra layihələrin uğurla icra olunduğunu qeyd edib.

Tərəflər həmçinin regionda mövcud olan cari vəziyyət və ikitərəfli əməkdaşlığın bəzi məsələləri ətrafında fikir mübadiləsi aparıblar. C.Bayramov iranlı həmkarını Azərbaycana rəsmi səfərə dəvət edib.

**Məlum telefon danışığını "Şərq"ə dəyərləndirən sabiq Xarici işlər naziri Tofiq Zülfüqarov Azərbaycan-İran əlaqələrinin geniş olduğunu bildirib:** "O cümlədən Qarabağ zonasına aid bəzi məsələlər var. Ona görə də tərəflərin regiondakı vəziyyətlə bağlı fikir mübadiləsi aparması normaldır. Hüseyn Əmir Abdullahiyan xarici işlər naziri vəzifəsinə yeni təyin olunub. İki ölkə arasında əlaqələrin qurulması, həmçinin nazirlərin şəxsi münasibətinin olması əsas məsələlərdən biridir. Əminəm ki, bu istiqamətdə də danışıqlar baş tutub".

**Yeganə**

# Baş nazir hələ telefondan çox "asılı" qalacaq

## Putin gözü Qərbdə olan Paşinyanı süründürməklə həzz alır, onu alçaldır

Gorus-Qafan avtomobil yolunun bağlanmasından sonra Ermənistan Baş naziri Nikol Paşinyan dərhal Rusiya Prezidenti Vladimir Putinlə əlaqə saxlamağa çalışıb. Ancaq Kreml rəhbəri 2 gün Paşinyanın telefonlarına çıxmayıb. Rusiya siyasi dairələrində belə bir fikir var ki, Putin bu yolla Paşinyana onun vasitəçiliyi olmadan heç bir sərhəd məsələsinin həll oluna bilməyəcəyini və Moskvadan yan keçmək cəhdlərinin sadəcə mənasız olacağını çatdırıb.

Məlumat üçün bildirək ki, Azərbaycan avqustun 25-də əsgər Ruslan Şirəliyev iki erməni silahlısının qəfil hücumuna məruz qalıb və yaralanıb. Buna cavab olaraq elə həmin gün Azərbaycan tərəfi Gorus-Qafan yolunu bağlayıb. İki gün davam edən üçtərəfli danışıqlardan sonra avqustun 27-si yol açılıb.

**BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə deyib ki, Putin Paşinyanın zənglərinə gec çıxmaqla kimin söz sahibi olduğunu göstərmək istəyir. Ekspertin sözlərinə görə, əslində söz sahibinin kimliyi İrəvana çoxdan bəllidir:** "Paşinyanın müharibənin ilk günündən sonuna kimi telefondan "asılı" qaldığını bütün dünya gördü. Rusiya prezidenti belə addımları ilə bəzi olaylarda Moskvanın guya neytral qaldığını, bir sıra hadisələrə biganə yanaşdığını subüt etməyə çalışır. Kremlə lazım olan rus qoşunlarının regionda yerləşməsi idi, ona da nail oldu. Hazırda Rusiya Qarabağdakı proseslərə təsir imkanına sahibdir. Hətta Putin bəzən hər məsələyə görə ona yalvaran, amma gözü Qərbdə olan Paşinyanı süründürməkdən belə həzz alır, onu alçaldır. Kimin ağa olduğunu başa salır. Regiondakı proseslər Rusiyanın nəzarətində olsa da, Moskva Azərbaycanın tələblərini nəzərə almaq məcburiyyətindədir. Yaddan çıxarmayaq ki, 44 günlük müharibə heç də Rusiyanın istək və tələblərinə uyğun başlamamışdı. Hətta savaş Kremlin

> "Çox qısa zamanda Zəngəzur dəhlizinin açılmasına nail olmalıyıq. Ermənistanla əlaqələr məhdud şəkildə bərpa olunmalı, Türkiyə ilə Ermənistan arasında münasibətlər qurulmalıdır"



planlarını böyük ölçüdə pozmuşdu. Müharibə Azərbaycan tərəfinin Türkiyə ilə birlikdə fəaliyyətinin məntiqi nəticəsi idi. Rusiya öz maraqlarına uyğun gəlməyən reallıqları yenidən bərpa etməyə səy göstərir. Münaqişənin hələ də mövcud olduğunu sətiraltı mesajlarla diqqətə çatdırır. Əlbəttə, bu, çox təhlükəli tendensiyadır və gələcəkdə bizə problemlər yarada bilər".

*A.Qasımov vurğulayıb ki, Ermənistan müharibənin zərbəsindən ayılana kimi rəsmi Bakı prosesi sona çatdırmalıdır:* "Çox qısa zamanda Zəngəzur dəhlizinin açılmasına nail olmalıyıq. Ermənistanla əlaqələr məhdud şəkildə bərpa olunmalı, Türkiyə ilə Ermənistan arasında münasibətlər qurulmalıdır. Hesab etmək olar ki, əlaqələrin bərpasından sonra erməni cəmiyyəti qonşuları ilə sakit və firavan yaşayışın nəticəsini görər və öz xülyalarına son verər. Ondan sonra yekun sülh müqaviləsi barədə fikirləşmək olar. Bunlar reallaşarsa, Paşinyan hökuməti də hər çətinlikdə Putinə yalvarmaq məcburiyyətində qalmaz".

**İsmayıl Qocayev**



# Təxribatlarda Ermənistan qədər Rusiya da məsuliyyət daşıyır

## Lavrov sülhməramlıların imicini təmizləməyə cəhd etdi

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov deyib ki, Azərbaycan və Ermənistan bir-birlərinə qarşı ritorikalarını əhəmiyyətli dərəcədə yumşaltmalıdırlar. XİN rəhbəri bu fikirləri erməni həmkarı Ararat Mirzoyanla Moskvada görüşündən sonra mətbuat konfransında səsləndirib.**

Lavrov vurğulayıb ki, sərt ritorikaların yumşaldılması yekun və tam tənzimləmə üçün şərait yaradar. Rusiya xarici işlər naziri diqqəti üçtərəfli işçi qrupun fəaliyyətinin əhəmiyyətinə çəkib və qeyd edib ki, söhbət prosesin bərpasından yox, indiyədək imzalanan sənədlərin yerinə yetirilməsindən gedir: "Burada nəqliyyat kommunikasiyalarının və iqtisadi əlaqələrin açılması üçün baş nazir müavinləri səviyyəsində üçtərəfli işçi qrup xüsusi rol oynayır. Bu, tərəflərin baş verənlərə daha konstruktiv yanaşmasına imkan verəcək çox mühüm tədbirdir". Nazir bildirib ki, Rusiya Azərbaycan tərəfini bütün erməni hərbi əsirlərin qeyd-şərtsiz azad olunmasına çağırır: "Biz bu siqnalı azərbaycanlı həmkarlarımıza göndərir, hamının qeyd-şərtsiz azad edilməsinə çağırırıq. Azərbaycan tərəfindən belə hərəkət hazırda çatışmayan etimadın rəmzi olardı. Əgər dəqiq olsaq, 9 noyabr bəyanatında qeyd olunan hərbi əsirlər həmin vaxta qədər əsirlikdə olanlardır. Azərbaycandakı erməni hərbçilər isə 9 noyabr bəyanatından sonra saxlanılıblar". Lavrov əlavə edib ki, Moskva və İrəvan ATƏT-in Minsk qrupu həmsədrlərinin gələcək fəaliyyətinə tələbatın olduğunu da təsdiqləyiblər. Məlumat üçün deyək ki, erməni saytları bu açıqlamanı "Lavrov erməni əsirlərin azad olunmasını tələb etdi" kimi başlıqlarla yayıblar. Ekspertlərin fikrincə, Lavrovun əksər açıqlamaları ziddiyyətli və ikibaşlı olur. Baş diplomat fikirlərini ifadə etməyə fərqli cümlələrlə başlasa da, sonunu ayrı cür gətirir. Politoloqlara görə, rusiyalı rəsmilərin bölgədəki vəziyyət haqqında nə düşündüklərini açıq səsləndirmələri bizim üçün də faydalıdır. Biz də Rusiyanın siyasəti haqqında heç nəyi gizlətməməliyik. Prezident İlham Əliyev son müsahibəsində Rusiyanın vasitəçiliyi ilə Azərbaycana verilən mina xəritələrinin böyük hissəsinin saxta olduğunu vurğuladı. Digər tərəfdən Lavrov özü də etiraf etdi ki, Azərbaycan həbsxanalarında saxlanılan erməni hərbçilər üçtərəfli bəyanatdan sonra ölkəmizə keçiblər. Əlbəttə, hansısa təzyiq qarşısında erməni diversantların sərbəst buraxılması doğru olmaz. Ermənistan hakimiyyəti Azərbaycanla sülh sazişi, o cümlədən sərhədlərin müəyyənləşməsi ilə bağlı sənəd imzalamağa hazır olarsa, erməni diversantlar məsələsinə qayıdıla bilər.

**Rusiya XİN başçısının açıqlamasını "Şərq"ə təhlil edən siyasi şərhçi Züriyə Qarayeva hesab edir ki, Lavrovun Ermənistan və Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı səsləndirdiyi fikirlər birmənalı şəkildə Rusiyanın ləkələnmiş sülhməramlı imicini təmizləmək məqsədi daşıyır.** Analitikin fikrincə, 44 günlük müharibənin bitdiyi gündən bəri sərhəd xəttində baş verən təxribatlarda Ermənistan qədər, rus sülhməramlıları da məsuliyyət daşıyır: "Ötən ilin 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanatın müddəalarını icra etmək hər üç tərəfin öhdəliyi olduğu halda, bəyanatın bir neçə maddəsi hələ də icra edilməyib. Əvvəla, separatçılar Azərbaycan torpaqlarından təmizlənməyib. Sərhəd xətlərinin delimitasiya-demarkasiya prosesi başa çatmayıb. Rus sülhməramlılarının nəzarəti altında olan bölgələrdə ermənilər yerləşdirilsə də, məcburi köçkünlərimiz hələ də öz yurdlarına qayıtmayıb. Bütün bunlarla paralel separatçıların diversiya əməlləri, hərbçilərimizə qarşı təxribatları Azərbaycan tərəfinin səbrini daşırıb. Prezidentin çıxışlarında Rusiyanın sülhün bərqərar olunması üçün üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirməməsi barədə ittihamları və Xarici İşlər Nazirliyinin notası bunun göstəricisidir. Rusiyanın bölgədə yeganə rıçağı olan Ermənistanı itirmək üzrə olması, Aİ-nin rəsmi İrəvana yüklü miqdarda ianə etməsi və Paşinyanın Kəlbəcər-Gorus istiqamətində beynəlxalq



müşahidəçilərin yerləşdirilməsi ilə bağlı çağırışları Moskvanı narahat etməyə başlayıb. Rusiya heç bir şəkildə tərəflər arasında sülh müqaviləsinin imzalanmasını istəmir. Çünki sülh müqaviləsinin imzalanması protokol qaydalarına görə tərəflərin bir-birinin ərazi bütövlüyünü tanıması deməkdir. Belə olduğu halda bölgədə rus sülhməramlılarına heç bir ehtiyac qalmır. Mövcud vəziyyətdə Rusiyanın Minsk qrupunu yenidən fəallaşdırmaqla bağlı çağırışları bölgədəki vəziyyətin çıxılmaz hala salınması marağı ilə əlaqədardı. Çünki Minsk qrupunun həmsədrlərinin təmsil etdiyi dövlətlərin Qarabağla bağlı maraqları toqquşur. Onsuz da xaotik olan vəziyyəti daha da çətinləşdirməklə Kreml həm məsuliyyəti üzərindən atmağa, həm də erməni xalqına Paşinyanın üz tutduğu Qərbin heç bir işə yaramadığını göstərməyə çalışır".

**Rusiya sülh müqaviləsinin imzalanmasını istəmir. Çünki bu halda bölgədə rus sülhməramlılarına heç bir ehtiyac qalmır**

**Z.Qarayeva Rusiya XİN rəhbərinin "əsir və girovlarla" bağlı çağırışını bu cür şərh edib:** "Lavrov unutmamalıdır ki, Azərbaycan tərəfi hərbi əsirlərlə bağlı prinsipial mövqe göstərir, humanizm nümayiş etdirir. Azad edilmiş torpaqlarda bu günə qədər davam edən axtarış əməliyyatları nəticəsində 1600-dən çox erməni işğalçının cəsədi tapılıb və qarşı tərəfə təhvil verilib. Lakin Ermənistan tərəfi nə 1992-94-cü illərdə itkin düşmüş azərbaycanlıların qaytarılmasını həyata keçirir, nə də İkinci Qarabağ müharibəsində itkin düşmüş 7 nəfərin taleyi barədə məlumat verir. Erməni əsirliyindən azad edilmiş hərbçilərin və hadisə şahidi olmuş mülki vətəndaşların ifadələrinə baxmayaraq, Ermənistan bu şəxslərin əsir-girov götürülməsi və saxlanması faktını inkar edir. Halbuki, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən 3171 nəfəri hərbçi, 719 nəfəri isə mülki şəxs olmaqla, ümumilikdə 3890 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Yəni erməni tərəfi və rus sülhməramlıları bəyanatın digər maddələri kimi 8-ci bənddə nəzərdə tutulmuş "hərbi əsirlərin mübadiləsi"ni də yerinə yetirməkdən boyun qaçırır".

**İsmayıl Qocayev**

# ATƏT xanım Lindeni qabağa verib

## Ancaq indiki vəziyyətdə Azərbaycan, Ermənistan və Gürcüstan əməkdaşlığı baş tutan deyil

ATƏT-in sədri Ann Linde İllik Təhlükəsizlik Konfransında çıxışı zamanı bildirib ki, Azərbaycan, Ermənistan və Gürcüstan arasında əməkdaşlıq Cənubi Qafqazda davamlı sülh və inkişaf üçün vacibdir. 2020-ci ildə əldə olunan atəşkəsin İkinci Qarabağ savaşına son qoyduğunu qeyd edən Linde, ATƏT-in bu bölgədəki səylərini bərpa etmək üçün bu məqamdan istifadə etməli olduğuna əminliyini ifadə edib.

Onun sözlərinə görə, qalan problemlərin uzunmüddətli həllini tapmaq çox vacibdir. Bu üç ölkə arasında əməkdaşlığın əhəmiyyətini vurğulayan Linde qeyd edib ki, əməkdaşlıq sahələri infrastruktur, rabitə və ətraf mühit məsələlərini əhatə edə bilər.

**İlk baxışdan ATƏT-in bu təklifinin cəlbedici göründüyünü vurğulayan siyasi elmlər namizədi, politoloq Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, bu təklifin arxasında hansısa bir aysberqin görünməyən tərəfi var və onu müəyyən etmək bir qədər çətindir. Ekspertin sözlərinə görə, bu təklifin həyata keçməsi üçün isə Qafqazda şərait yoxdur:** "Birincisi, Qafqazın hər üç respublikası Rusiya tərəfindən həm siyasi, həm iqtisadi, həm də hərbi terrora məruz qalıb. İkincisi, burda Rusiyanın Ermənistan kimi xəyanətkar, ikiüzlü və çox xain bir ortağı var. Bu dövlətin əliylə həm Gürcüstana, həm Azərbaycana qarşı hər bir zaman istənilən xəyanət həyata keçirilə bilər. Üçüncüsü, bu müddət ərzində ATƏT özünü münaqişələrin həll edilməsi məsələsində doğrultmayıb. Nə Azərbaycan, nə Gürcüstan ərazisindəki hadisələrin, daha doğrusu, Rusiyanın hərbi müdaxiləsinin qarşısını almayıb və yaxud da almaq istəməyib. Baxmayaraq ki, ATƏT-ə kifayət qədər güclü dövlətlər daxildir. Amma bu dövlətlərin hamısı bu və ya digər formada pərdəarxası Rusiya ilə əlaqələrini saxlayır və öz iqtisadi maraqlarını təmin edirlər. Xanım Linde ATƏT-in yeni sədridir və o, bu, missiyanı üzərinə götürmək istəyir. Amma bu xanımın çiyinlərinin gücü çatası bir missiya deyil. Ona görə də belə təklif nə qədər cəlbedici, xoş olsa da həyata keçirmə ehtimalı sıfıra bərabərdir. Yenidən Azərbaycan vaxt itirə bilər".

"Belə təklif nə qədər cəlbedici, xoş olsa da həyata keçirmə ehtimalı sıfıra bərabərdir. Yenidən Azərbaycan vaxt itirə bilər"




**C.Nuriyev diqqətə çatdırıb ki, o, Ermənistanın bu əməkdaşlığa gedəcəyinə inanmır:** "Ola bilər ki, Ermənistan üzdə Azərbaycanı təxribata çəkmək üçün əməkdaşlığa girsinlər. Amma belə götürəndə də Azərbaycan dövlətinin istər infrastruktur, istər rabitə, istərsə də ətraf mühitlə bağlı Gürcüstanla hər hansı bir problemi yoxdur. Və hər iki dövlətin çoxsaylı ortaq işləri var. Yaxşı olardı ki, xanım Linde bu barədə Ermənistana müraciət etsin və onların dəqiq razılığını alsın. Bəli, Azərbaycan infrastruktur açmaq, xüsusən də Zəngəzur dəhlizinin açılmasında çox maraqlıdır. Bunu birgə biz həyata keçirə bilərik. Qarabağın ərazisində Azərbaycan necə ki, indi orda bərpa işləri aparıb, eyni işləri ermənilər yaşayan kəndlərdə, qəsəbələrdə də həyata keçirə bilər. Rabitə cəhətdən onlar Azərbaycana tabe olmaq haqqında müraciət etməlidirlər. Ermənilərin ətraf mühitə vurduğu ziyan göz qabağındadır. Bu gün də Ermənistanın ərazisindəki ən azı Qacaran mismolibden mədəninin Araz çayına tökdüyü zəhərli maddələr bütün dünyaya məlumdur. Yəni bu sahədə Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi dəymiş ziyanla bağlı çoxsaylı müraciətlər verir və çoxsaylı təhlillər, analizlər aparıb. Bunların əvvəlcə bir nəticəsini görək, sonra xanım Lindenin bu təklifinə baxmaq və müzakirə etmək olar".

**Aynurə Pənahqızı**

# Hər şey dağıdılıb, insanların həyatı məhv edilib

**“Ümid edirik ki, burada üzüm bağları və yaşıl sahələr yenidən çiçək açacaq”**

Türk Şurasına üzv və müşahidəçi dövlətlərin media orqanları "Azərbaycana Media Tur" çərçivəsində Şuşa şəhərinə səfər ediblər. Mediatur çərçivəsində Türk Şurası ölkələrinin mətbuat nümayəndələri və müşahidəçiləri Azərbaycanın azad edilmiş ərazilərində olublar.




## Türk Şurasına üzv və müşahidəçi dövlətlərin media nümayəndələri Qarabağ səfərindən danışıblar

Səfər çərçivəsində xarici jurnalistlər Birinci Qarabağ müharibəsi dönəmində ermənilər tərəfindən güllələnmiş Xurşudbanu Natəvanın, Üzeyir Hacıbəyli və Bülbülün abidəsini ziyarət ediblər. Daha sonra isə Şuşa qalasında və Cıdır düzünə baş çəkiblər. Səfərdə Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan, Serbiya, Bosniya və Herseqovinadan 20 -dən çox jurnalist iştirak edib. Səfər erməni vandalizminin nəticələri, ermənilər tərəfindən Azərbaycanın yaşayış məntəqələrini və tarixi abidələrini məhv etməklə bağlı media nümayəndələrini məlumatlandırmaq məqsədi daşıyır. Üç günlük səfər zamanı jurnalistlər Füzuli, Cəbrayıl, Şuşa və Gəncəni ziyarət edəcəklər. Jurnalistlər məhv edilmiş müsəlman tarixi və dini abidələrini, qəbiristanlıqlarını da görəcəklər.

**“Azərbaycanın ərazilərini işğaldan azad etməsinə çox sevinirik”**

**Qazaxıstandan olan jurnalist Rauşan Saylauqızı Azərbaycanın azad edilmiş ərazilərinə mediaturu zamanı deyib ki, Azərbaycan qardaş ölkədir və ərazilərin işğaldan azad edilməsi onu çox sevindirir.** Gördükləri ilə bağlı təəssüratlarını bölüşərkən, jurnalist Qazaxıstanda tərk edilmiş evlərin olduğunu, lakin Azərbaycanın azad edilmiş ərazilərində tamamilə fərqli bir vəziyyətin müşahidə edildiyini qeyd edib: ”Bizdə sakinlər sadəcə olaraq kəndlərindəki evlərini tərk edərək şəhərlərə köçürlər. Amma burada hər şey dağıdılıb, insanların həyatı məhv edilib. Ürəyimdəki ağrı ilə insanların burada necə yaşadıqlarını və evlərindən qovulduqlarını təsəvvür edə bilərəm”. Qazaxıstanlı jurnalist ərazilərin minalardan təmizlənməsi, bərpası və insanların öz torpaqlarına qaytarılması işlərinin tezliklə başa çatdırılmasını arzuladığını bildirib.

**“Ümidvaram ki, azad edilmiş Azərbaycan torpaqlarında bir daha müharibə olmayacaq”**

**Bosniya və Herseqovinadan olan jurnalist Edis Delkoviç bir daha azad edilmiş Azərbaycan torpaqlarında müharibə olmayacağına ümid etdiyini bildirib:** ”İlk dəfədir Qarabağdayam, bir neçə ölkədən bir qrup jurnalistlə bura gəlmişəm. İlk təəssürat kimi deyə bilərəm ki, Bosniyada yaşadıqlarımızla oxşar cəhətlər var, 1992-1995-ci illərdə bizdə də müharibə olub. Buna görə də müharibənin nə olduğunu çox yaxşı bilirəm. Belə yerləri görəndə deyə bilərəm ki, müharibə həqiqətən qorxunc bir şeydir və ümid edirəm ki, bir daha burada belə bir şey olmayacaq”.

**“Azərbaycanın azad edilmiş yenidən çiçəklənəcək”**

**Qırğızıstanlı jurnalisti Daniyar Carqınbayev də qeyd edib ki, Azərbaycanın azad edilmiş əraziləri yenidən çiçəklənəcək.** Carqınbayev gördüklərindən böyük acı hiss etdiyini qeyd edib: ”Hər hansı bir müharibə pisdir, anaların kədəri, hər kəsin və bütün xalqın kədəridir. Qəbirlərin necə dağıldığını öz gözlərimlə gördüm, sanki tanklar qəsdən bunları vurublar. Mərmi hissələrinin qalıqları hər yerdədir. Ümid edirəm ki, burada üzüm bağları və yaşıl sahələr yenidən çiçək açacaq”.

**İsmayıl Qocayev**



## Müdafiə Nazirliyində kadr dəyişikliyi baş verib

### Mətbuat Xidmətinin rəisi vəzifəsi Anar Eyvazova həvalə edilib

**Müdafiə nazirinin müvafiq əmri ilə nazirliyin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı Azərbaycan Ordusunun Baş Qərargah rəisinin Katibliyinin rəisi vəzifəsinə təyin edilib.**

Bu barədə ”Şərq”ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Mətbuat Xidmətinin rəisi vəzifəsi isə Xidmətin rəis müavini vəzifəsinə təyin edilən polkovnik-leytenant Anar Eyvazova həvalə edilib.

Xatırladaq ki, 2020-ci il sentyabrın 26-da, İkinci Qarabağ müharibəsinin başlamasına bir gün qalmış, Azərbaycan Ordusu ilə kütləvi informasiya vasitələri (KİV) arasında işin çevik və daha səmərəli təşkil edilməsi məqsədilə Müdafiə Nazirliyinin Mətbuat Xidmətində struktur dəyişikliyi və kadr islahatları aparılıb.

Müdafiə naziri Zakir Həsənovun əmri ilə Mətbuat Xidmətində mətbuat katibi vəzifəsi təsis edilib və bu vəzifəyə polkovnik-leytenant Eyvazov Anar Məhəmmədəli oğlu təyin olunub.

Mətbuat Xidmətinin fəaliyyətinə, o cümlədən KİV nümayəndələri ilə işin aparılmasına polkovnik Vaqif Dərgahlı rəhbərlik edib.

# ABŞ-ın Əfqanıstan siyasəti sıfırdır

## Dünya liderlərinin səsləndirdiyi ittihamlarda həqiqət payı çoxdur




**Əfqanıstanda ”Taliban” hərəkatı və müqavimət qüvvələri arasında döyüşlər davam edir. Döyüşlər Pənçşir, Parvan və Bağlan əyalətlərində gedir. Xatırladaq ki, Pənçşir əyaləti Əfqanıstanda hakimiyyəti ələ keçirən taliblərə təslim olmayıb.**

Pənçşirdə müqavimət qüvvələrinə əfsanəvi səhra komandiri Əhməd şah Məsudun oğlu Əhməd Məsud rəhbərlik edir. O, Əfqanıstanın vitse-prezidenti Əmrulla Saləhlə birgə ”Taliban”ın hakimiyyətini qəbul etməyib. Yayılan məlumatlara görə, ”Taliban” Əhməd Məsudu məhv etmək niyyətindədir. Əfqanıstanın Tacikistandakı səfiri Məhəmməd Zahir Əkbər deyib ki, taliblər heç vaxt onlarla danışıqlara getməyəcək: ”Onlar siyasətçi deyil, terrorçudurlar. Üç il əvvəl onlar dünyanın əksər ölkələrində qadağan olunmuş təşkilatlar siyahısında idilər. Taliblərin məqsədi bütün Əfqanıstanı diz üstə çökdürməkdir”. ”Taliban”ın rəsmi nümayəndəsi Zəbiullah Mücahid ABŞ-ın tamamilə ölkədən getdiyini, məğlub olduğunu və Əfqanıstanda nəzarətin tam şəkildə ”Taliban”ın əlində olduğunu söyləyib. Onun sözlərinə görə, Amerika Əfqanıstanda öz məqsədlərinə çata bilməyib. Avropa Birliyinin xarici işlər və təhlükəsizlik məsələləri üzrə nümayəndəsi Jozef Borrel isə deyib ki, ”Taliban”ın Əfqanıstanda qələbəsi Qərbin açıq məğlubiyyətinə şahidlik edir. Borrel vurğulayıb ki, Qərb bundan dərs çıxarmalı və dünyanın digər bölgələrində analoji fəaliyyətlərə yol verilməməlidir: ”Bu, ilk növbədə əfqan xalqı üçün fəlakətdir. Qərbin açıq məğlubiyyətidir. Bu, beynəlxalq münasibətlərdə əhəmiyyətli dəyişikliklərə gətirib çıxardı. Baş verənlərdən dərs çıxarmaq lazımdır. Əfqanıstan 10 günə yox, 10 ilə itirildi. Qərb ölkələri müasir dövlətin əsaslarını yaratmağa kömək edə bilmədi”. Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Vanq Venbin bildirib ki, ABŞ qoşunlarının Əfqanıstandan çıxarılması sübut edir ki, hərbi müdaxilə və dəyərlərin digərlərinə sırınması siyasəti uğursuzluğa məhkumdur. Rusiya Prezidenti Vladimir Putin də Əfqanıstandakı proseslərə münasibət bildirib. Putinin sözlərinə görə, iyirmi ildir Amerika qoşunları bu ərazidə idi və iyirmi il ərzində heç kimi incitmədən orada yaşayan insanları sivilləşdirmək, siyasi durum da daxil olmaqla ən geniş mənada öz norma və həyat standartlarını tətbiq etmək istəyirdilər. Ancaq nəticə ABŞ və Əfqanıstan ərazisində yaşayan insanlar üçün yalnız faciələr, yalnız itkilər oldu. Nəticə sıfırdır”.

> “Çox güman ki, bundan sonra Avropa Birliyi Amerikadan fərqli siyasət yürüdəcək və Qərb ölkələri NATO-dan kənar qərarlar alacaqlar”

**Əfqanıstan olaylarından sonra ABŞ-ın əsas hədəf olması, hətta Qərb ölkələrinin tənqidinə tuş gəlməsi ilə bağlı ”Şərq”ə danışan siyasi şərhçi Turan Rzayev deyib ki, ”Taliban”ın əl-qol açmasına görə Amerikanın ciddi ittihamlarla üzləşməsi təsadüfi deyil və müəyyən mənada haqlı tərəflər də var:** ”Avropa ölkələrinin də təmsil olunduğu NATO-nun minlərlə əsgəri 20 il ərzində Əfqanıstandakı radikal qruplaşmalara qarşı döyüşüblər. Nəticədə xeyli əsgər həlak olub, yüzlərlə hərbçi yaralanıb. Təmsil etdikləri ölkələrin büdcəsindən Əfqanıstandakı fəaliyyətə kifayət qədər maddi vəsait ayrılıb. Amma ABŞ qəfil geri çəkilmək qərarı aldı və sadəcə Ağ Evin deyil, Avropanın da nüfuzuna zərbə vurdu. Ağ Evin tənqid hədəfi olmasına səbəb 20 illik fəaliyyətin uğursuzluğu ilə bağlıdır. Çox güman ki, bundan sonra Avropa Birliyi Amerikadan fərqli siyasət yürüdəcək və Qərb ölkələri NATO-dan kənar qərarlar alacaqlar. Ümumiyyətlə, Əfqanıstanda baş verən proseslər ABŞ və Böyük Britaniya siyasətinin 200 ildən sonra kəsişdiyini göstərir. Məsələ ondadır ki, Çinin ”bir kəmər, bir yol” layihəsi Qərbin anqlosakson vahid siyasi xəttində qırılmalara səbəb oldu. Böyük Britaniya ”bir kəmər, bir yol” layihəsinin icrasını fürsət kimi qiymətləndirsə də, Amerika bunu təhdid olaraq dəyərləndirdi. İngiltərə ”brexit” qərarından sonra xarici siyasətdə aktivləşdi və qitədən kənar yanaşmalar ortaya qoydu. Hazırda Avropada ABŞ-ın yeritdiyi siyasətə qarşı ciddi narazılıq formalaşmaqdadır. 1945-ci il sonra Avropada vahid ”Avropa Evi” layihəsinin formalaşması Qərb ölkələrinin əl-qolunu bağlamışdı. Dünyanın üç ən nüfuzlu ölkəsinin bir formatda yer alması, onları siyasi-iqtisadi cəhətdən asılı etmişdi. Məhz bu səbəbdən İngiltərə Birlikdən getdi və müstəqil siyasətə başladı. Artıq ABŞ və Avropa ölkələri də bir-birinə zidd mövqe sərgiləyirlər”.

**İsmayıl Qocayev**



Türkiyənin Kayseri şəhərində yeməkxana sahibi "COVİD" pasportu ilə gəl, pulsuz kababa qonaq ol", kampaniyası keçirdi. Nəticədə bölgələr arasında ən aşağı peyvəndləmə göstəricisi olan Kayseridə rəqəmlər birdənbirə yüksəldi. Yeməkxana sahibi yerli mediaya açıqlamasında belə bir kampaniya ilə 2 məqsədə nail olacaqlarını düşündüyünü demişdi: "Həm insanlarımızı həvəsləndiririk, "COVİD" pasportunu əllərinə alıb, yeməkxanaya gəlir, bişirdiyimiz kababları nuşcanlıqla yeyirlər. Həm də bu kampaniya vasitəsilə peyvənd olunanların sayını artırmış oluruq, həm də yoluxma sayının artacağı halda iş yerimizin bağlanması təhlükəsini azaldırıq. İş yerimiz bağlanarsa, işçilər əziyyət çəkəcək. Əmək haqqı ala bilməyəcəklər".

**Natiq Cəfərli: “Özəl şirkətlər, iri müəssisələr, biznes şəbəkələri də bunu edə bilər. Həvəsləndirici, təşviqedici kampaniyalar nə dövlət büdcəsi üçün böyük məsrəfdir, nə də özəl sektor üçün”**

# Dünya peyvənd güzəştlərinə keçir

## ...Bizdə nə həvəsləndirici, nə də təşviqedici kampaniyalar var

Bir bölgədə yaşayan və çalışan sahibkar adi bir davranışla vaksinasiyaya bacardığı qədər dəstək olur. İnsanları da, lap olsun, azacıq, müvəqqəti, amma bütün hallarda sevindirə bilir və həvəsləndirir. Təəssüf ki, pandemiyanın davam etdiyi 2 ilə yaxın müddətdə biz buna bənzər kampaniyaların şahidi olmadıq. Olmuruq da. Hökumət bir sıra addımlar atdı. Əsasən sərtləşdirilmiş karantin müddətində, SMS icazə tətbiq edildiyi zamanlarda əhalinin müəyyən təbəqəsinə 190 manat, vergi ödəyicisi olan sahibkarlıq subyektlərinə birdəfəlik maliyyə yardımı edildi. Məsələ məbləğin azlığında, çoxluğunda deyil. Hər halda, yardım oldu. Lakin uzun müddətdir ki, yardım kampaniyaları aparılmır. Ölkədə bu qədər biznes şəbəkələri, sahibkarlıq subyektləri, özəl şirkətlər fəaliyyət göstərdiyi halda, yardım kampaniyaları həyata keçirilmir. Söhbət, məhz indiki zamanda - peyvəndləmə aparıldığı vaxt həvəsləndirici, təşviqedici kampaniyalardan gedir. Məsələn, deyək ki, tanınmış marketlər şəbəkələri, paytaxtda bir neçə nöqtədə satış mərkəzləri olan iri alış-veriş mərkəzləri, brend məhsulların idxal və ixracatçıları nədənsə həvəsləndirici kampaniyalar keçirməkdə maraqlı deyil. Heç yadlarına düşmür. Halbuki hansısa ”super store”lər, məsələn, əhaliyə ”peyvənd vurdurana pulsuz çörək veriləcək”, yaxud ”peyvənd olunanlara un məmulatlarında endirim” tipli elanlar verməklə və bunu həyata keçirməklə vaksinasiya prosesinə böyük dəstək vermiş olar. 1-2 çörəklə, ya da un məmulatlarına endirim, güzəşt tətbiq etməklə kasıblaşmayacaqlar. Əksinə, müsbət imic əldə edəcək, daha yaxşı reklam olunacaq, əhaliyə dəstək olacaq, ümumilikdə dövlətin peyvəndləmə siyasətinə əməli kömək etmiş olacaqlar.

**Dünya güzəştlərlə “yarışır”: ipoteka ödənişləri, işıq, qaz...**

Xatırladaq ki, Birləşmiş Ştatların Prezidenti Cozef Bayden koronavirusdan vaksin edilən hər amerikalıya 100 ABŞ dolları ödəməyi təklif etmişdi, Maliyyə Nazirliyi də ”Prezident bu gün ştatları və regionları, həmçinin yerli hakimiyyət orqanlarını peyvənd stimulunu artırmaq, ictimaiyyəti və insanların həyatını qorumaq üçün əlavə təşviq olaraq hər yeni vaksin olunan amerikalı üçün 100 dollar ödənişi təmin etməyə çağırdı. Maliyyə Nazirliyi yerli hakimiyyət orqanlarına texniki yardım göstərməyə hazırdır”, - açıqlamasını vermişdi. Rusiyada hələ ötən il koronavirus səbəbiylə karantin müddəti üçün əhalinin kommunal ödənişlərdən azad olunması təklifi səslənmişdi.

”Gürcüstanda pandemiya dövründə özünütəcrid, karantin və qoruyucu maskadan düzgün istifadə qaydalarını pozan şəxslər cərimələrdən azad olunacaqlar”.

Bunu Baş nazir İrakli Qaribaşvili xüsusi brifinqdə deyib. Müvafiq təşəbbüs parlamentə artıq təqdim olunub. Hökumət başçısı qeyd edib ki, söhbət ödənilməmiş cərimələrdən gedir: ”Cərimələrin silinməsi 245 min vətəndaş və 344 hüquqi şəxsi əhatə edəcək. Ümumi məbləğ 76 milyon lari təşkil edir”.

Bizdə də ötən il Nazirlər Kabinetinin mətbuat xidməti ”Aprelin əvvəlində əhaliyə ediləcək güzəştlərlə bağlı təkliflər açıqlanacaq, əhalinin müdafiəsi üçün işlər görülür”, açıqlaması bu şəkildə verilmişdi: ”Biznes dairələrə, hüquqi şəxslərə, muzdlu işçilərə, sosial müdafiəyə ehtiyacı olan əhalinin bu həssas qruplarına hansı güzəştlər olunacaq və dövlətin hansı formada dəstəyi olacaq, hansı mexanizmlər həyata keçiriləcək, bütün bunlar bir neçə işçi qrupunda müzakirə olunur. Aprelin əvvəlində bu təkliflər tam açıqlanacaq. Orada müxtəlif məsələlər var. Məqsəd budur ki, insanların itkiləri, koronavirusun yaratdığı problemlər minimallaşdırılsın. Amma istənilən halda xalqa dəstək olunacaq. Prezidentin göstərişi belədir, tapşırıq verilib və vəsait ayrılıb. 4 işçi qrupu da hazırda bu məsələlər ətrafında işləyir. Yaxın 4 gün ərzində qrupun hazırladığı təkliflər Nazirlər Kabinetinə təqdim olunacaq. Bundan sonra isə qərar qəbul olunacaq”. Amma heç bir təklif-filan, güzəşt də olmadı.

Dünyanın müxtəlif ölkələrində karantin müddətində maliyyə yardımı paketləri təqdim olundu. Məsələn, ABŞ-da hər vətəndaşa 1000 dollar yardım, kiçik və orta şirkətlərə 200-300 milyard dollar dəstək, hava yolu şirkətlərinə 50-100 milyard dollar dəstək, 500 milyard dollar vergi endirimi. Almaniyada koronavirusa qarşı investisiya paketinin həcmi təxminən 550 milyard avro idi. Paketə əsasən vergidə endirimlər, işdən çıxarılmaların qarşısını almaq üçün kompensasiyaların ödənilməsi, dövlət və ya dövlət idarələrinin çətinlikdə olan şirkətlərin hissələrinin satın alınması, dövlət sərmayələrinin artırılması daxil idi. İngiltərədə təxminən eyni yardım paketi təqdim olunmuşdu, məsələn, ölkənin ən kiçik 700 min firmasına 10 min sterlinq vəsait bağışlanacağı bildirilmişdi. Üstəlik ipoteka ödənişləri də üç aylıq müddətə dayandırılmışdı. Fransada təşviq paketinə əhalinin təbii qaz, elektrik enerjisi və kirayə ödənişlərindən azad olunması daxil idi.



**“Heç olmasa, vergi güzəştləri tətbiq edilsin”**

**”REAL” partiyasının sədr müavini, iqtisadçı Natiq Cəfərli ”Şərq”ə açıqlamasında hazırkı həssas dönəmdə heç bir təşviq kampaniyasının aparılmamasının, hökumət tərəfindən hər hansı güzəştlərin tətbiq edilməməsinin yalnız təəssüf doğurduğunu bildirdi:**

- Hazırkı dönəmdə vaksinasiya ilə bağlı təşviqat və təbliğat kampaniyalarının aparılması vacibdir. Artıq bu, sosial sifariş həddinə çatıb. İlk növbədə buna dövlət səviyyəsində, rəsmi qərar verilməlidir. Biz görürük ki, müxtəlif ölkələr peyvəndləmə kampaniyasının sürətlə və gərəkən bir şəkildə davam etməsi üçün hər cür güzəştli kampaniyalara əl atılır. Kommunal xidmətlərdə güzəştlər tətbiq edənlər var, sahibkarlara vergi güzəştləri edənlər var və sair. İkincisi, məsələ, təkcə dövlətin hansısa addımı atmasında da deyil. Özəl şirkətlər, iri müəssisələr, biznes şəbəkələri də bunu edə bilər. Həvəsləndirici, təşviqedici kampaniyalar nə dövlət büdcəsi üçün böyük məsrəfdir, nə də özəl sektor üçün. Amma əhaliyə böyük dəstəkdir, nəzərəçarpan müsbət irəliləyişə nail olmaq fürsətidir. Hökumət də şirkətlərə, müəssisələrə müəyyən vergi güzəştləri tətbiq etməklə, müəyyən kəsirlərini bağlamaqla bu kampaniyaya dəstək verməlidir. Peyvəndləmədə təşviqat işləri dövlətin də, biznes şəbəkələrinin də üzərinə müəyyən məsuliyyət qoyur.

**N.Cəfərli qeyd etdi ki, hazırda əhali arasında peyvəndləmə kampaniyası arzuolunan səviyyədə deyil:**

- Əhalinin kütləvi peyvəndlənməsi üçün daxili resurslar zəifdir. Hamımız müşahidə edirik ki, poliklinikalar bu işin öhdəsindən lazımınca gələ bilmir, çünki imkanlar geniş deyil. Məsələn, Moskvada böyük ticarət mərkəzlərində peyvənd otaqları təşkil olunub, ticarət mərkəzinə gələnlər elə oradaca peyvənd oluna bilir. Bizdə də belə edilə bilər. Nəhəng idman komplekslərimiz var. Niyə belə yerlərdə peyvəndləmə işi təşkil edilmir? Bundan başqa, səyyar tibb qrupları təşkil edilə bilər və peyvəndləmə həm də səyyar şəkildə aparılar. Poliklinikaya gedə bilməyənlər, paytaxtda qeydiyyatı olmayanlar, sənədsiz evlərdə yaşayanlar, əhalinin bir sıra həssas qruplarına səyyar peyvənd xidməti göstərilməlidir. Təsəvvür edin, şəxsiyyət vəsiqəsinin müddəti bitmiş vətəndaşlar var ki, peyvənd vurdura bilmir. Amma səyyar xidmət təşkil edilsə, biz peyvəndləmədə daha yüksək göstəriciyə nail olarıq.

**Mütəxəsssislər xalqa müraciət etməlidir**

**N.Cəfərli hesab edir ki, peyvəndləmə kampaniyasında tanınmış şəxslərin, ziyalıların iştirakı məqsədəuyğundur:**

- Cəmiyyətdə tanınmış insanların nümayişkaranə şəkildə peyvənd vurdurması insanlara həmişə müsbət təsir edir. Xarici ölkələrdə biz bunu müşahidə edirik. Ən yüksək vəzifəli şəxslər açıq şəkildə peyvənd olunur və bu, efir vasitəsilə, sosial şəbəkələr vasitəsilə cəmiyyətə yayılır. Hökumətlər tanınmış simalardan da təbliğat məsələsində istifadə edirlər. Biz də bunu edə bilərik. Deyək ki, sevilən sənətkarımız Fəxrəddin Manafov, yaxud Alim Qasımov, ya bir başqası cəmiyyət qarşısında peyvənd olunsun və bunu təbliğ etsin. Amma düşünürəm ki, mütəxəssislərin rəy bildirməsi, əhaliyə çağırış etməsi daha vacibdir. Məsələn, professor Akif Qurbanov danışanda insanlar ona inanır. Bilirlər ki, bu şəxs öz sahəsinin mütəxəssisidir. Eləcə də başqa həkimlərimiz, alimlərimiz. Hazırda peyvəndlə bağlı insanlar arasında tərəddüdlü bir vəziyyətdir. İnanan da var, inanmayan da. İnamı möhkəmləndirmək üçün vəzifəli şəxslərin, tanınmış insanların, cəmiyyətə hörmətə, sevgiyə sahib simaların peyvənd olunduqlarını bildirmələri məncə, müsbət nəticəyə nail olmağa kömək edər. Tibb üzrə mütəxəssislərin çağırış etməsi isə bu baxımdan lazımdır ki, onlar məsələni tibbi tərəfdən izah edirlər. İnsanlar da inanır, güvənir.

**Məlahət Rzayeva**

# Vaksinasiya prosesinin daha sürətləndirilməsi vacibdir



## Bunun üçün yeni qaydaların tətbiqi ilə yanaşı, prosesin tam elektronlaşdırılmasına ehtiyac var

## Vətəndaş cəmiyyəti institutları prosesə cəlb olunmalıdır

Dünəndən etibarən qapalı məkanda fəaliyyət göstərən ictimai iaşə müəssisələrinin, mehmanxanaların və iri ticarət mərkəzlərinin xidmətlərindən yalnız COVID-19 pasportu olanlar istifadə edə biləcək.

Nazirlər Kabinetinin yanındakı Operativ Qərargahın məlumatına görə, indiyədək 6 milyon 805 min vətəndaşımız peyvənd olunub. Onlardan 2 milyon 692 min nəfəri hər iki dozadan istifadə edib. 4 milyon 113 min vətəndaşımız isə yalnız bir doza peyvənd olunub. Bu o deməkdir ki, hər iki doza üzrə peyvənd olunanlar ümumi vaksinasiyadan keçənlərin 40 faizini belə təşkil etmir. Həmin kateqoriya üzrə digər 60 faizdən çox vətəndaşımız isə hələlik cəmi bir dəfə peyvənd oluna biliblər. Bu isə o anlama gəlir ki, əsasən qadağalar elan olunandan sonra vətəndaşlar arasında vaksinasiyaya meyl artıb.

**Millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə bildirib ki, Azərbaycanda əhalinin 26.5 faizi hər iki dozadan istifadə edib.** Deputatın sözlərinə görə, vaksinasiya səviyyəsinə görə ölkəmiz MDB-də Qazaxıstandan sonra ikinci olsa da, mövcud peyvəndləmə faizinə görə normal həyata qayıtmaq mümkün deyil: "Vaksinasiya prosesinin daha sürətləndirilməsi vacibdir. Aydındır ki, yeni məhdudiyyətlərin tətbiqində məqsəd peyvəndləmə prosesini sürətləndirməkdən ibarətdir. Bununla belə, yeni qaydaların tətbiqi ilə yanaşı, prosesin tam elektronlaşdırılmasına ehtiyac var. Bütün ictimai iaşə müəssisələrində, mehmanxanalarda və iri ticarət mərkəzlərində elektron COVİD-19 pasportlarını oxuyan xüsusi avadanlıqlar quraşdırılması zəruridir. Bu amil prosesə elektron nəzarəti formalaşdırmaqla yanaşı, növbələrin sayını və kənar müdaxilələri də azaldar".

*Parlament üzvü qeyd edib ki, qaydaların icrasına ictimai nəzarətin gücləndirilməsinə ehtiyac var:*
"Pandemiyanın ilk aylarında vətəndaş cəmiyyəti institutları maarifləndirmə tədbirlərində fəal iştirak edirdilər. Sonrakı mərhələlərdə bu istiqamətdə aktivlik azaldı. Əksər dövlət qurumlarının yanında İctimai Şuraların yaradıldığını nəzərə alsaq, vətəndaş cəmiyyəti institutlarının prosesə aktiv cəlb olunması və monitorinqlər aparması məqsədəuyğun olardı. Bütün bunlar vaksinasiya prosesinin sürətləndirilməsinə dəstək olar".

**İsmayıl Qocayev**

# İrəvan Kremldən də cavabını aldı

## "Terrorçuların məsələsi üçtərəfli razılaşmaya aid deyil"



**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Moskvada keçirilən mətbuat konfransında Qarabağ məsələsinin həllinə dair üçtərəfli razılaşmanın icrasından danışıb.**

O bildirib ki, 2020-ci il noyabrın 9-da üç ölkə lideri tərəfindən imzalanan bəyanatda söhbət həmin vaxtda əsirlikdə olan şəxslərin azad olunmasından gedirdi.

Nazirin sözlərinə görə, hazırda Azərbaycanda olan erməni hərbçilər 9 noyabr bəyanatından sonra, noyabr ayının sonlarında saxlanılıblar.

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq münasibətlər üzrə ekspert Əziz Əlibəyli Lavrovun fikirləri ilə bağlı "Şərq"ə açıqlamasında deyib ki, terrorçuların noyabrın sonunda ələ keçirilməsi və məhkəmədə mühakimə edilməsi Ermənistanın Azərbaycana yönəlik "ittihamlarını" gücləndirmişdi:** "Rusiyanın mövqeyi də məhz bu baxımdan əhəmiyyətlidir. Lavrov sözügedən açıqlaması ilə dedi ki, terrorçuların məsələsi üçtərəfli razılaşmaya aid deyil. Deməli, İrəvan bundan təzyiq vasitəsi kimi istifadə etməməlidir. Nazirin verdiyi mesajlardan biri də bütün tərəflərin sərhədlərin müəyyənləşməsində, kommunikasiya xətlərinin açılmasında maraqlı olmasıdır. Yəni erməni terrorçular artıq gündəm mövzusu deyil".

**Kənan**



# Türkiyə hüquq sahəsində zəngin təcrübəyə malikdir

## Bu mənada qardaş ölkədə keçirilən konfranslarda, seminarlarda iştirak etmək xeyrimizədir

**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə səfər edib.**

Səfərin məqsədi Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Mehmet Akarca və Baş prokuroru Bekir Şahinin dəvəti ilə qardaş ölkənin Ali Məhkəməsi və Baş Prokurorluğunun yeni inzibati kompleksinin açılışında iştirak etməkdir. Həmçinin nümayəndə heyətimiz "Kassasiya instansiyası məhkəmələrində mükəmməllik" mövzusunda keçiriləcək beynəlxalq simpoziumda iştirak məqsədilə Ankara şəhərinə səfərə gedib.

**Millət vəkili Fazil Mustafa səfərin əhəmiyyətini "Şərq"ə qiymətləndirib:** "Düzdür, bizim hüquq sistemlərimizdə müəyyən fərqliliklər mövcuddur. Amma nəzərə almaq lazımdır ki, Türkiyə hüquq sahəsində zəngin təcrübəyə malikdir. Bu mənada qardaş ölkədə keçirilən konfranslarda, seminarlarda iştirak etmək xeyrimizədir.

Qarşılıqlı əməkdaşlığımız güclənməlidir. Hətta qanunvericiliyimizdə müəyyən dəyişikliyə ehtiyac olsa da, eyni hüquq məkanına daxil olmağımız da faydalı ola bilər.

Fikrimcə, səfər çərçivəsində həmçinin bu məsələlər müzakirə ediləcək".

**Kənan**

# "Biz işə həmişə gənclərlə başlamışıq"

## Elşad Eyvazlı: "Modern.az" xeyli jurnalistin ilk iş yeri olub"

KİV hər bir dövlətin danışan dili, eşidən qulağıdır. Hazırda Azərbaycanda yüzlərlə media orqanı var. Amma, əlbəttə, üzdə olanların, etimad qazananların, ictimai rəy yaratmaq gücünə malik KİV nümunələrinin sayı heç də çox deyil.

*Belə media platmormalarından biri də təsis edilməsindən bu gün 12 il keçən "Modern.az" saytıdır. "Şərq"in əməkdaşı "Modern.az"ın baş redaktoru Elşad Eyvazlı ilə söhbətləşdik:*

**- 12 il müddətində xeyli başarılarınız olub. Uğurunuzun sirri nədədir?**

- İstənilən nailiyyətə görə ilk növbədə dostlara, o cümlədən "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlıya və "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidə minnətdaram. "Modern.az" yeni yaradılanda Rəşad müəllim redaksiyasında bizə bir otaq vermişdi. Bir müddətdən sonra çətin olduğunu gördüm, getmək istədim. Rəşad müəllim qoymadı. Məni daha da həvəsləndirdi. İndi mümkün şərtlər daxilində media qurumu nümunəsini qorumağa çalışırıq.

**- Yəqin, çətinlikləriniz də olub...**

- Bəzi layihələri həyata keçirə bilməmişik. Yadımdadır ki, əməkdaşlarımız bəzi məmurlardan müsahibə ala bilmirdilər. Çünki müstəqil adamı, millətini, dövlətini təmənnasız sevəni adətən qəbul etmirlər. Bununla belə, bir çox ilklərə də imza atmışıq. "Modern.az" xeyli jurnalistin birinci iş yeri olub. Əlbəttə, arzular həmişə imkanlardan çox olur. Mən etiraf etməliyəm ki, mediamızda çatışmazlıqlar var. Ən azından ona görə ki, xarici jurnalistlərlə bizim müzakirə predmetlərimiz eyni deyil. Biz ötən 12 il ərzində əlimizdən gəldiyi qədər ləyaqətlə xidmət etməyə çalışmışıq. Baxın, qarğa 300 il, qartal bəzən 10 il yaşayır. Lakin biz heç vaxt qarğa ömrü sürməmişik.

**- Kollektivinizə yeni əməkdaşlar dəvət edəndə hansı məqamlara diqqət yetirirsiniz?**

- Biz yalnız gənclərlə işə başlamışıq və onlara həmişə xüsusi qayğı ilə yanaşmışıq, üstünlük vermişik. Bəzən təcrübəsiz olsalar belə, çeviklikləri gənclərin ən böyük üstünlüyüdür. Hazırda bizdə BDU-nun Jurnalistika fakültəsinin on nəfər tələbəsi çalışır. Üstəgəl, "Media könüllüləri" layihəsini həyata keçirmişik. Ümumiyyətlə, mənə görə insanlar öyrənmək istəyən və öyrənmək istəməyən olmaqla iki yerə bölünür. Əgər bir nəfər, həqiqətən, öyrənmək istəyirsə, qalan bütün çatışmazlıqlar zamanla həllini tapır. Fikrimcə, bütün media qurumları gənc əməkdaşlara xüsusi yer verməlidirlər.



**- Gələcək planlarınız nələrdir?**

- "Modern.az"ın rusdilli versiyasını yaratmaq istəyirik. Azərbaycanda xaricidilli jurnalistika inkişaf etdirilməlidir. Bu, informasiya savaşında qalib gəlməkdən ötrü bizim üstünlüyümüz olar. İkinci planımız isə sahə saytlarının yaradılmasıdır.

***P.S.*** *"Şərq" qəzeti "Modern.az"ın kollektivini təbrik edir, işlərində daha böyük uğurlar arzulayır.*

**Kənan Novruzov**

# Qarabağdakı bütün erməni postlarını dağıtmalıyıq



## Politoloq: "Əmin olun, ondan sonra Ermənistan və Rusiya "status" kəlməsini dilə gətirməyəcək"

Ermənistanın yeni təyin olunmuş XİN rəhbəri Ararat Mirzoyan Moskvada rusiyalı həmkarı Sergey Lavrovla görüşdə sərsəm ifadələr səsləndirib. Moskva, Bakı və İrəvan arasında imzalanmış üçtərəfli bəyanatların mahiyyətinə varmayan Mirzoyan yeni dönəm üçün rəsmi Bakının qarşısında şərtlər qoyub.



Mirzoyanın Moskva mesajı əslində Ermənistanın əleyhinədir

Onun fikrincə, "Qarabağın statusu" ilə bağlı qərar verilməyənə qədər Azərbaycan tərəfi ilə heç bir sülh müqaviləsi imzalanmayacaq. Həmçinin, nazır əlavə edib ki, indiki mərhələdə Azərbaycanla sülh müqaviləsi üzrə danışıqlar aparılmır: "Əgər belə şeylər nə vaxtsa başlasa, ATƏT-in Minsk qrupu həmsədrlərinin müəyyən etdiyi prinsiplər əsasında Dağlıq Qarabağın statusu məsələsi bu cür danışıqların bir hissəsi olmalıdır". Azərbaycan tərəfinin dəyişməz mövqeyi yekun sülh sazişinin bağlanması və bütün məsələlərin ümumi saziş çərçivəsində həll edilməsidir. Ermənistan isə bundan qaçır və Xankəndidə yerləşən separatçı rejimin "status" məsələsini yenidən gündəmə daşımağa çalışır.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Paşinyan hökuməti Qarabağı Azərbaycan ərazisi kimi tanımaqdan imtina edir və müqavimət göstərir:** "Bəs XİN başçısı Sergey Lavrov rusiyalı jurnalistin sualına necə cavab verib? Rusiyanın xarici işlər naziri cavabdan yayınıb və deyib ki, bu məsələlər tərəflər arasında həll olunmalıdır. Yəni qeyri-müəyyən fikirlər söyləyib. Halbuki, Lavrova və Rusiya rəhbərliyinə də bəllidir ki, Ermənistanla Azərbaycan bir-birinin ərazi bütövlüyünü qarşılıqlı olaraq tanısalar, məsələ birdəfəlik bitəcək. Ancaq Kreml məsələnin bitməsini istəmir".

**Politoloq Məhəmməd Əsədullazadə də bildirib ki, Mirzoyanın bu mesajı Moskvadan verməsi ona hesablanıb ki, əgər Kreml istəməzsə, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi olmayacaq:** "Halbuki, 10 noyabr bəyannaməsi atəşkəs, əməkdaşlıq və sülhə aparan yol xəritəsidir və öhdəliklər yerinə yetirilməklə məsələnin bağlanması nəzərdə tutulur. Bəyannamədə "status" məsələsi təsbit edilməyib. Lakin Ermənistanın israrla bunun üzərində dayanması sülh imkanlarını fiaskoya uğradır. Əslində Moskvadan verilən bu mesaj Ermənistanın əleyhinədir və perspektivdə sadəcə Rusiyanın maraqlarına uyğundur. İrəvan hökuməti Rusiyanın bu mövqeyi ilə barışır və sülh imkanlarını sabotaj edir. Çıxış yolu Ermənistana təzyiqləri artırmaqdan və sərhəddə bu ölkəyə ciddi problem yaratmaqdan keçir. Həmçinin, Qarabağdakı qanunsuz silahlı erməni birləşmələrini sıxışdırmalı, postları dağıtmalı, terrorçuları təmizləməliyik. Əmin olun, ondan sonra Ermənistan və Rusiya "status" kəlməsini dilə gətirməyəcək".

**İsmayıl Qocayev**

# "ABŞ-ın planları adətən uzaqmənzilli olur"

## Fuad Abbasov: "Biz indi baş verənlərin nəticəsini 15-20 il sonra görəcəyik"



**Rusiya, Çin, ABŞ və Pakistan Kabildə Əfqanıstanla bağlı görüş keçirəcəklər. Bu barədə Rusiya XİN-dən məlumat verilib. Bildirilib ki, vəziyyətin stabilləşməsindən və aeroportun fəaliyyətinin bərpa edilməsindən sonra tərəflər Əfqanıstanın paytaxtı Kabil şəhərində bir araya gələcəklər.**

Görüşdə Əfqanıstanla bağlı məsələlər müzakirə olunacaq.

**Jurnalist, siyasi şərhçi Fuad Abbasov "Taliban" hakimiyyətinin gələcəyi barədə "Şərq"ə danışıb. Onun fikrincə, bu, böyük planın tərkib hissəsidir:** "Mən 2001-ci ildə Əfqanıstanda "Taliban"la ABŞ arasında baş verən müharibədə hərbi jurnalist kimi iştirak etmişəm. ABŞ-ın "Taliban"a qarşı mübarizəsinin şahidiyəm. İyirmi il əvvəl ABŞ sözügedən qruplaşmaya qarşı necə vuruşurdusa, indi onu bir o qədər dəstəkləyir. Təsadüfi deyil ki, əfqan hakimiyyəti üçün ayrılan milyardlarla pul "Taliban"a sanki hədiyyə edildi. Eyni zamanda ABŞ qoşunları Əfqanıstandan çıxarkən texnika "Taliban"a qaldı. Niyə? Çünki Vaşinqton "Taliban"dan gələcəkdə müxtəlif məqsədlər üçün istifadə etmək niyyətindədir".

**F Abbasov, həmçinin ABŞ-ın məqsədlərini açıqladı:** "Bu supergüc regionda yeni reallıq

### "Taliban"ın şiddət görüntüləri bütün planetə yayılır, bəşəriyyət bir növ manipulyasiya edilir"

yaratmaq istəyir. Dünyada radikal müsəlmanlara qarşı qorxu formalaşdırmaq niyyətindədir. Buna görə də "Taliban"ın şiddət görüntüləri bütün planetə yayılır, bəşəriyyət bir növ manipulyasiya edilir. Dünyaya mesaj verilir ki, "Taliban" planet üçün başlıca təhdid ola bilər. Əlbəttə, bütün bunlar ABŞ hakimiyyətinin dəstəyilə həyata keçirilir. ABŞ-ın planları adətən uzaqmənzilli olur. Yəni biz indi baş verənlərin nəticəsini 15-20 il sonra görəcəyik. Amma Rusiya səfirliyinin "Taliban"la görüşmək istəməsi, radikal qruplaşmanın Türkiyəyə olan münasibəti Əfqanıstanı yaxın gələcəkdə məhz "Taliban"ın idarə edəcəyini göstərir. Ölkədə şəriət qaydalarına uyğun hakimiyyət formalaşdırılacaq, müasir idarəetmə olmayacaq. Bu isə o deməkdir ki, Əfqanıstan 100 il geriyə gedəcək".

**Kənan**

# Ordumuzun hərbi təlimlərində ciddi mesajlar var

## Aqşin Kərimov: "Təlimlərin ardıcıllığı və xarakteri antiterror əməliyyatlarına hazırlıq məqsədinin anonsudur"

Ermənistanda Baş nazir Nikol Paşinyan orduda şəxsi heyətin çatışmazlığını, psixoloji və döyüş hazırlığı səviyyələrinin bərbadlığını kompensasiya etmək üçün qadınların icbari hərbi xidmətə çağırılmasını məqbul sayır. Paşinyan bunu demoqrafik vəziyyətlə əlaqələndirir. Bir sözlə, Ermənistan ordusunda vəziyyət olduqca acınacaqlı və fəlakətlidir. Lakin Azərbaycan orduSuna gəlincə, təkcə Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Orduda bir ay ərzində - avqustda keçirilən intensiv hərbi təlimlərə diqqət çəkmək bəs edər.

Məsələn, bu il avqustun 5-də Əlahiddə Ümumqoşun Orduda xüsusi təyinatlı bölmələrin təlimi keçirilib. Bundan başqa, avqustun 10-da tank və mexanikləşdirilmiş birləşmələrin aktiv məşğələləri baş tutub. Eyni zamanda avqustun 14-də hava hücumundan müdafiə bölmələri təlimlərə cəlb olunub. Bununla yanaşı, avqustun 20-də minaatan bölmələr təlim atışları reallaşıb. Avqustun 31-də isə xüsusi təyinatlı bölmələrin növbəti təlimi gerçəkləşib. Birinci və beşinci təlim sırf antiterror təlimləridir, digərləri isə dolayı da olsa antiterror hazırlıqları ilə əlaqəlidir.

**Ard-arda keçirilən təlimləri zəruri edən amilləri "Şərq"ə sadalayan siyasi şərhçi, jurnalist Aqşin Kərimov vurğulayıb ki, Naxçıvan Azərbaycanın strateji əhəmiyyətinə görə ən vacib nöqtəsidir.** Ekspertin sözlərinə görə, Qarabağda müharibə Azərbaycanın qələbəsi ilə başa çatdıqdan sonra Ermənistanla dövlət sərhədinin Naxçıvan istiqamətində də möhkəmləndirmə işləri həyata keçirilir: "Təkcə Əlahiddə Ümumqoşun Ordu Ermənistanı məhv etməyə qadirdir. İlin əvvəlində Naxçıvanda intensiv təlimlərə start verilib, Türkiyədən olan hərbçilər də bəzilərinə qatılıblar. Məsələn, iyunun 22-də Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanları ilə birgə taktiki-xüsusi təlimi keçirilib. Avqustun 31-də xüsusi təyinatlıların təlimində Türkiyə Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu müşahidəçi və təlimatçı qismində iştirak edib. Naxçıvan Azərbaycanın strateji əhəmiyyətinə görə ən vacib nöqtələrindən biridir, Türkiyə, İran və Ermənistanla sərhəddə yerləşir".

*A.Kərimovun qənaətincə, təlimlərin ardıcıllığı və xarakteri antiterror əməliyyatlarına hazırlıq məqsədinin anonsudur, Ermənistan üçün kabusa çevrilən Azərbaycan xüsusi təyinatlılarının məşqlərinin ictimailəşdirilməsi isə İrəvanın qorxularını və isterikasını dərinləşdirir:* "Antiterror əməliyyatları miqyasına və xarakterinə görə müharibədən fərqlidir, müharibə daha çox hərbi texnika, daha çox canlı qüvvə tələb edir, itki ehtimalı yüksəkdir. Ancaq antiterror təlimləri qısa müddətdə az itki və ya itki olmadan hədəflərə nail olmaq deməkdir.



Ermənistan müharibənin bitdiyini elan edən 10 noyabr bəyanatının 4-cü bəndini, qoşunlarının Rusiya sülhməramlıların müvəqqəti məsuliyyət zonasında olan ərazilərindən çıxarılması məsələsini yubadır, bununla vaxt qazanmağa çalışır. Azərbaycan isə diplomatik həmlələr və hərbi gücü ilə Ermənistanı sıxışdırmaq, bununla sülhə məcbur etmək taktikasını işə salır. Ancaq bir tərəfdən də ehtiyatı əldən vermir. Ona görə də mütəmadi hərbi təlimlər keçirir və Ermənistana növbəti "Dəmir yumruq" mesajını verir".

**Yeganə Bayramova**

# Həkimlər evlərə virus daşımır



## “Belə vəziyyətdə çalışan həkimlərə “həkim gəldi, bizi yoluxdurdu”, demək hansı etikaya sığır?!”

**Şahvələd Məmmədov: “Təcili Yardım briqadası çağırışlara unitar formada, tibbi əlcək, tibbi maska, qoruyucu eynək, ya da qoruyucu kaska ilə, koronaviruslu xəstələrin çağırışına isə xüsusi kombinzon geyinmiş halda gedir”**



Pandemiyada ən çox əziyyət çəkən və real təhlükə altında olan əlbəttə ki, tibb işçiləridir. Müəyyən məqamlarda onlardan narazı olsaq da, böyük fədakarlıq nümayiş etdirdiklərinin də fərqindəyik. Tibb işçiləri 2 ilə yaxındır koronavirusun əhatəsindədirlər. Təbii ki, yorulurlar. Usanırlar. Hətta bu cür ağır işdən bezib ixtisasına əlvida deyənlər də olur. Məsələn, İranda olduğu kimi.

APA-nın Tehran bürosunun xəbərinə görə, İranın Tibb bacısı işçiləri sisteminin İdarə Heyətinin sədri Armin Zareiyan deyib ki, İranda 100 min nəfərdən çox tibb bacısı yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxub. İHnin sədri bildirib ki, koronavirusa yoluxan tibb bacılarının 30 min nəfəri Tehrandakı xəstəxanalarda çalışıb. Peyvənd olunmuş 30 tibb bacısı isə koronavirusun ”Delta” ştammına yoluxub. Üstəlik, 24 saatlıq fəaliyyət tibb bacılarını yorub və onların depressiyaya düşmək təhlükəsi var. Ekspertlər İranda tibb bacılarının sayının normadan aşağıda olduğu qənaətindədir. Ekspertlər bildirir ki, tibb bacılarının maaşları onların rifahını təmin edəcək həddə deyil. Bu səbəbdən də İrandakı tibb bacıları başqa ölkələrdə xidmət etmək üçün ölkəni tərk edir.

Ölkəmizdə də həkimlərə ehtiyac artıb. Səhiyyə Nazirliyi bununla bağlı məlumat yayıb. Nazirliyin məlumatında qeyd olunur ki, koronavirus (COVID-19) xəstələrinə fasiləsiz və keyfiyyətli tibbi xidmətin göstərilməsi üçün Bakı şəhəri və Abşeron rayonu üzrə təcili və təxirəsalınmaz tibbi yardım stansiyalarına təcili və təxirəsalınmaz tibbi yardım üzrə həkim vəzifələrinə yaşı 60-a qədər olan həkim anestezioloq-reanimatoloqlar, həkim-infeksionistlər və həkim-terapevtlər işə dəvət olunur.

Məhz təcili və təxirəsalınmaz tibbi yardım stansiyalarının həkimlərə ehtiyac duyması, məsələnin nə qədər mqrəkkəb olduğunu göstərir. Vətəndaşlar təcili yardımdan həmişə narazıdır. Xüsusilə də, hazırkı kritik dönəmdə. Vətəndaşlar bu fikirdədir ki, təcili yardım həkimləri evlərə virus ”daşıyır”. Yəni gün ərzində viruslu xəstələrlə kontaktda olan tibb işçiləri çağırışlara getməklə başqalarını da yoluxdura bilər. Amma demə, həkimlər də vətəndaşlardan narazıdır. Bu məsələdə hər iki tərəf özünü haqlı sayır. Lakin sağlamlığımızı yenə də həkimlərə etibar edirik.

**Təcili Yardım Stansiyasının həkimi Şahvələd Məmmədov hazırda həkim-xəstə münasibətlərində qəribə halların baş verdiyini dedi. Həkim-terapevt ”Şərq”ə açıqlamasında qeyd etdi ki, tibb işçiləri real təhlükə altında çalışmalarına baxmayaraq vəzifələrindən imtina etmir:**

- Baxın, vətəndaş ”103” xidmətinə zəng edir. Deyir, təzyiqim var. Təcili Yardım çağırışa gedir. Vətəndaşın müayinəsi zamanı məlum olur ki, təzyiqi yoxuymuş, amma hərarəti 38 dərəcədir. İndi kim kimi yoluxdurdu? Təcili Yardım briqadası çağırışlara unitar formada, tibbi əlcək, tibbi maska, qoruyucu eynək, ya da qoruyucu kaska ilə, koronaviruslu xəstələrin çağırışına isə xüsusi kombinzon geyinmiş halda gedir. Təsəvvür edin, gün ərzində briqada 15-20 çağırışa çıxır. Bu qədər çağırışa kombinezonda getmək bilirsiz nə deməkdir? Bu, yorucu, üzücü bir işdir, psixoloji gərginlikdir. Növbənin sonunda isə həkim briqadası ”dezkamera”dan keçir. Bakı şəhər Dezinfeksiya Stansiyasında bütün geyimini dəyişir, əvvəlki geyimlər dezinfeksiya aparatına verilir, həkim özü də dezinfeksiyaedici məhlullarla yuyunur və geyimini dəyişir. Həkimlər belə bir ağır şəraitdə çalışır. Baxmayaraq ki, növbəlilik prinsipinə riayət edilir, yenə də iş prosesi ağırdır. Belə vəziyyətdə çalışan həkimlərə ”həkim gəldi, bizi yoluxdurdu”, demək hansı etikaya sığır?! Həkim də insandır, o da yorula bilər. Görünür, İrandakı tibb bacıları da yorulub. İran isti bir ölkədir, yoluxma sayı da yüksəkdir. 2 ilə yaxın koronavirus xəstələri ilə çalışmaq heç kəsə asan gəlməsin.

*Ş.Məmmədov Səhiyyə Nazirliyinin həkimlərin işə qəbulu elanı məsələsinə də toxundu:*

- Hesab edirəm ki, həkim, tibbi personal çatışmazlığı modul tipli xəstəxanalarda daha çox hiss edilir. ”COVİD” xəstələrinin müalicəsində reanimatoloqlara, anestezioloq və infeksionistlərə böyük ehtiyac var. Yoluxma sayı artdığından həkim, tibbi personal çatışmır. Ona görə də SN belə bir elan verib.

**Məlahət Rzayeva**

# ÜST Azərbaycanı məktəbləri açmağa çağırdı

## Ölkəmizdə tədrisin ənənəvi qaydada başlaması daha məqsədəuyğundur

Yeni tədris ili ərəfəsində uşaqların məktəbə qayıtmağa hazırlaşdığı bir dövrdə virusun ötürülməsini minimuma endirmək üçün tədbirlərin görülməsi hər zamankından daha böyük və həlledici əhəmiyyət kəsb edir. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və UNICEF-in Azərbaycandakı Nümayəndəliklərinin birgə məlumatında bildirilib.

”ÜST və UNICEF-in bəyan etdiyi kimi, bu tədbirlərə müəllimlər və digər məktəb işçilərinin peyvəndlənməyə əlçatanlığın təmin edilməsi, eləcə də sinif otaqlarının daha yaxşı havalandırılması, siniflərdə daha az şagird sayı, fiziki məsafənin gözlənilməsi, məktəb əməkdaşlarının virusa qarşı müntəzəm yoxlanılması və valideynlərin təhlükəsizlik tədbirləri haqda davamlı məlumatlandırılması kimi tədbirlər vasitəsilə məktəb mühitinin təhlükəsizlik standartlarına uyğunluq baxımından yaxşılaşdırılması daxildir.

Peyvəndlənmə, ”Delta” varianti da daxil olmaqla, virusdan ən yaxşı və sürətli qorunma üsullarından biridir. Müəllimlər və digər məktəb işçilərinin peyvəndlənməsi bu il mövcud olan bir üstünlükdür ki, bunun sayəsində məktəblər daha təhlükəsiz məkan olacaq. İki ilə yaxındır ki, COVID-19 pandemiyası ilə yaşayırıq və məktəblərin təhlükəsiz şəkildə yenidən açılması ümdə prioritetə çevrilib. Məktəblərin qapanması uzun müddətli dövrdə böyük mənfi təsirlərə səbəb olur və buna bəraət qazandırmaq çətindir. Hamımız uşaqlarımızın gələcəyini qorumaq naminə məktəblərin təhlükəsiz şəkildə yenidən açılması üçün çalışmalıyıq. Ümumdünya Səhiyyə Təşkilatı, Azərbaycan da daxil olmaqla, ölkələrə COVID-19 riski və virusun fərqli variantlarının yayılmasını minimuma endirmək üçün tədbirlər görərkən məktəbləri açıq saxlamağı təkidlə tövsiyə edir. Məktəblərin yenidən açılmasında mühüm rol oynayan milli vaksinasiya strategiyasının həyata keçirilməsində yerli tərəfdaşlarımızı dəstəkləyirik”- deyə ÜST-nin Azərbaycandakı nümayəndəsi Dr. Hande Harmancı bildirib. ”Pandemiya məktəblərin qapanmasının uşaqlar üçün böyük mənfi təsirlər göstərdiyini nümayiş etdirməklə yanaşı, məktəblərin uşaqların təhsili, psixi sağlamlığı və sosial bacarıqları baxımından da əhəmiyyətli rol oynadığını sübuta yetirdi. Uşaqlar və gənclər təhsillərinə bir il də fasilə verilməsi riski ilə üzləşməməlidir. Sentyabrın 15-də məktəblərin təhlükəsiz şəkildə açılmasını təmin etmək və uşaqların məktəbin təqdim etdiyi imkanları əldən verməmələri üçün UNICEF Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq edir”, - deyə UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Aleks Haykens qeyd edib.



## Kamran Əsədov: “Biz mütləq şəkildə bütün tələbələri ənənəvi qaydada tədrisdə iştirakı üçün vaksinasiyaya cəlb etməliyik”

Qeyd olunub ki, hazırda UNICEF-in Azərbaycandakı Nümayəndəliyi Azərbaycanın seçilmiş on rayonunda təlimi bərpa etmək məqsədilə uşaqlara ünvanlı dəstək vermək üçün Təhsil Nazirliyi ilə əməkdaşlıq edir. Proqram yeni dərs ilində geri qalmamaları üçün uşaqlara əlavə tədris şəklində dəstək, müəllimlərə isə mentorluq dəstəyi nəzərdə tutur. Uşaqlar və müəllimlərə psixi sağlamlıqla bağlı və psixo-sosial dəstək həm UNICEF, həm də ÜST üçün davamlı prioritetlərdən biri olacaq: ”UNICEF və ÜST-nin Azərbaycandakı Nümayəndəlikləri ölkədə bütün uşaqların məktəblərə təhlükəsiz qayıdışı naminə valideynlər, müəllimlər və şagirdlər üçün bütün zəruri məlumatlar da daxil olmaqla birgə ”Məktəbə qayıdış” kampaniyası üçün Təhsil Nazirliyinə, eləcə də yerli səhiyyə qurumlarına birgə dəstək verəcək”.

**ÜST-nin qərarını yüksək dəyərləndirdiyini deyən təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında vurğulayıb ki, ölkəmizdə tədrisin ənənəvi qaydada başlaması daha məqsədəuyğundur. Ekspert qeyd edib ki, ali təhsil müəssisələrində tədrisin təşkili kifayət qədər ciddi problemə çevrilib:** ”Çünki orta ümumtəhsil məktəblərində pandemiya dövründə iki dəfə tədris ənənəvi qaydada bərpa edilsə də, ancaq ali təhsil müəssisələrində bu, ciddi problem olaraq qalıb. Bizim ali təhsil müəssisələrimizdə təhsil alan tələbələrimiz 1 il 6 aydan çoxdur ki, məsafədən dərslərdə iştirak edirlər. Təbii ki, bu da onların zəruri bilik əldə etməsinə ciddi şəkildə mənfi təsir göstərir. Xüsusən tibb və mühəndislik ixtisaslarında tələbələrin ciddi şəkildə problem yaşadığının şahidiyik. Həmçinin internetlə bağlı yaşanan problemlər də ənənəvi təhsilə keçidi zəruri edir. Ancaq burada istisnalar var. Nəzərə alsaq ki, 18 yaşı tamam olmayan şəxslər də ali təhsil müəssisələrində təhsil alırlar, onların tədris prosesində iştirakı müəyyən qədər çətinlik yaradacaq. Hesab edirəm ki, yuxarı kursların günün ikinci, kiçik kursların isə birinci yarısında dərsə gəlməsi təşkil edilə bilər. Digər tərəfdən isə əsas ixtisas fənləri ənənəvi qaydada, ixtisas üzrə ikinci dərəcəli əlavə fənlər isə onlayn qaydada keçirilə bilər ki, bu da tədris prosesinin ənənəvi təşkilinə imkan verəcək. Hesab edirəm ki, xüsusən tibb və mühəndislik kimi ixtisaslarda tədrisin onlayn qaydada həyata keçirilməsi effektiv deyil. Ona görə də biz mütləq şəkildə bütün tələbələri ənənəvi qaydada tədrisdə iştirakı üçün vaksinasiyaya cəlb etməliyik. Ümumilikdə, təhsil sisteminin elektronlaşması istiqamətində böyük addımlar atılıb. Kifayət qədər yeniliklər təhsilin təşkilindəki müddət tələbə sayı ilə bağlı olacaq”.

**Aynurə Pənahqızı**





# Axundzadə Əfqanıstanın ali lideri olacaq

### İran və "Taliban" hakimiyyətləri bir-birindən fərqlənir

## "İran layihə olaraq Fransanın və SSRİ-nin proyekti idi, amma bu, Amerikanındır"

**Əfqanıstanda hakimiyyəti ələ keçirən "Taliban" hərəkatı Molla Xibatullah Axundzadənin ölkənin ali lideri olacağını planlaşdırır. Məlumata görə, "Taliban" hakimiyyəti qismən İran modeli üzərində təşkil etmək niyyətindədir.**

Belə ki, ali lider dövlət başçısıdır, eyni zamanda ən yüksək siyasi və dini hakimiyyətdir. İcra hakimiyyətinə ali liderin müavinlərindən biri olacaq baş nazir rəhbərlik edəcək. Onu da qeyd edək ki, ali liderliyə namizəd olan Axundzadə heç vaxt açıq çıxış etməyib və harada olduğu bilinmir.

**"Taliban"la İranın dini hakimiyyətləri arasında fərqliliyin olduğuna diqqət çəkən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə açıqlamasında bildirib ki, ümumiyyətlə, İran və "Taliban" hakimiyyətləri bir-birindən fərqlənir. Ekspert hesab edir ki, ən önəmli fərq İranda hakimiyyətə xalqın gücü ilə gəlinməsidir:** "İran layihə olaraq Fransanın və SSRİ-nin proyekti idi, amma bu, Amerikanındır. Qeyd edim ki, Amerika bilərəkdən bölgələri "Taliban"a təhvil verdi və çıxdı. Təhvil verib çıxarkən isə onlara 85 milyard dollarlıq silah qoydu. Yəni bunun normal da heç bir izahı yoxdur. Hesab edirəm ki, bunu SSRİ-ni Əfqanıstanda məğlub olub çıxdığı 1989-cu illə müqayisə edənlər yanılır. Burda heç də Birləşmiş Ştatların məğlub olub çıxmasından söhbət gedə bilməz. Onun bu qədər silah sursatı "Taliban"a verərək, döyüşmədən təslim olmasının yalnız bir anlamı var. ABŞ Çin, İran, Rusiya üçlüyünə qarşı ciddi şəkildə bir xaos yaratmağı planlayır. Və bu xaosu həmin o milyardlarla silahı qoymaqla da başa gətirmiş olacaq. Hesab edirəm ki, bu proyekt məhz budur. Bu proyekt nəticəsində yaxın dönəmlərdə taliblər bölgəyə doğru həm din, həm də terrorçu ixrac edəcəklər. Yeri gəlmişkən, ən başlıcası hər üç ölkənin ciddi şəkildə başını ağrıdacaqlar. Çünki onların əllərində olan silahlar Orta Asiyanın heç bir gücünün əlində yoxdur".

> **"ABŞ "Taliban"a 85 milyard dollarlıq silah qoyub çıxıb, bu, Çin, İran və Rusiyanın başını ağrıdacaq"**

**Aynurə Pənahqızı**



# Ukraynanın yolu artıq Qərbədir

### ABŞ-ın məqsədi Kiyevi Rusiyanın "caynağından" qoparmaq, Kremli çökdürməkdir

**Ukrayna Prezidenti Vladimir Zelenski amerikalı həmkarı Co Baydenlə bir neçə gün sonra keçiriləcək görüş barədə danışıb.**

O, bir çox məsələdə ABŞ dövlət başçısının fikirlərini eşitmək istədiyini bildirib. "Bizim sadəcə sual-cavabdan ibarət yox, ciddi görüşümüz var. Bir çox məsələ var ki, cavab yox, fikir almaq lazımdır. Bir çox məsələdə Baydenin fikirlərini eşitmək istəyirəm", - prezident qeyd edib. Zelenskinin sözlərinə görə, müzakirə olunacaq məsələlərə həmçinin təhlükəsizlik, müharibə və iqtisadiyyat da daxildir.

**Zelenskinin bəyanatını şərh edən politoloq Azər Rəşidoğlu "Şərq"ə söyləyib ki, bu, Rusiyaya qarşı demarşdır:**

"Ukrayna Rusiyadan uzaqlaşıb, ABŞ-ın "çətiri altna girmk istəyir". Kiyevin NATO-ya doğru inteqrasiyası, Qərblə artan əməkdaşlığı Moskvanın oradakı təsir dairəsinin itməsi deməkdir. Rusiya Ukraynada məğlub olub, işğal etdiyi əraziləri, o cümlədən Krımı itirsə, Putinin SSRİ-ni bərpa etmək ambisiyası ciddi zərbə alacaq. Nəzərinizə çatdırım ki, Zelenskinin ABŞ-da xüsusi diqqətlə qarşılanması onun şəxsi personası ilə bağlı deyil. Məqsəd Ukraynanı Rusiyanın "caynağından" qoparmaq, Kremli çökdürməkdir. Liderlər arasında hansı məsələlərin müzakirə olunmasından asılı olmayaraq, görüş mühüm əhəmiyyət kəsb edir".

**A.Rəşidoğlu, həmçinin əlaqələrin perspektivindən də söz açıb:** "ABŞ-ın Əfqanıstandan çıxması Çinə qarşı cəbhənin yaradılmasından xəbər verir. ABŞ hansısa mərhələdə Ukraynanı qurban verə bilər. Amma bütün hallarda Kiyevin gələcəyi Moskva ilə yox, Qərblə bağlıdır. Ukrayna artıq Qərbə inteqrasiya yolunu tutub".

**Kənan**



# Rusiyanın məkrli planını Ukrayna gözəl anlayır

### Samir Hümbətov: "Azərbaycan beynəlxalq təşkilatlar səviyyəsində istər Krım, istər Donetsk və Luqansk məsələsində hər zaman Ukraynanın ərazi bütövlüyünü dəstəkləyib"

**Son dövrlər mediada ən çox müzakirə olunan məsələlərdən biri Ukraynanın təşkil etdiyi "Krım Platforması"nda Azərbaycanın iştirak etməməsi və bu platformaya dəstək verməməsidir.**

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Samir Hümbətov bildirib ki, Azərbaycan və Ukrayna arasında sıx siyasi, iqtisadi və mədəni əlaqələr mövcuddur:**

"Təbii ki, bu əlaqələrin kökü bir əsrə yaxındır. Yəni həm Azərbaycan, həm də Ukrayna 70 ildən artıq SSRİ tərkibində müttəfiq respublikalar olduğu kimi SSRİ dağıldıqdan sonra da bu münasibətləri daim davam etdiriblər və bu gün də bu münasibətlər davam edir. 2020-ci ilin statistikasına baxdıqda Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsinin həcminin 771 milyon dollardan artıq olduğunu görə bilərik. Bu isə hər iki dövlət arasında olduqca yüksək göstərici kimi qəbul edilə bilər. Azərbaycanla Ukrayna ikitərəfli əlaqələrdə, regional təşkilatlar səviyyəsində (GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və s.), beynəlxalq təşkilatlar səviyyəsində daima bir-birinin ərazi bütövlüyünü dəstəkləyib və indi də dəstəkləməkdədir. Hətta onu da qeyd etmək olar ki, İkinci Qarabağ savaşında da Ukrayna Azərbaycana açıq siyasi dəstəyini nümayiş etdirdi".



**Politoloq "Krım Platforması"nda iştirak etməmək Azərbaycan-Ukrayna əlaqələrinə ciddi təsir edə bilərmi" sualına da aydınlıq gətirib: "Şübhəsiz ki, siyasət ağıl və məntiq oyunudur.** Siyasətdə hissə qapılmaqla doğru nəticə əldə etmək çətin məsələdir. Həmin oyun həm də Azərbaycan və Ukrayna məsələsində də öz təsirini göstərə bilər. Məlum məsələdir ki, 10 noyabr 2020-ci ildə imzalanmış müqaviləyə əsasən Rusiya "sülhməramlıları" Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti dislokasiya olunub. Bu "sülhməramlılar" demək olar ki, orada sülhün təmin olunmasından daha çox bölgənin erməni əhalisinə qulluq edirlər. Görünən odur ki, Rusiya "sülhməramlıları"nın əsas məqsədi bütün gücü ilə çalışıb bölgədə təxribatlar yaratmaq və yarana biləcək qeyri-stabilliyi bəhanə edərək hələ uzun müddət regionda qala bilməkdir. Azərbaycan tərəfi Rusiyanın bu məkirli planından xəbərdar olduğu üçün sözügedən platformada iştirak etməmək qərarı aldı. Fikrimcə, Azərbaycan bu qərarla regionda yarana biləcək hansısa xoşagəlməz hadisələrin qarşısını almış oldu".

**Siyasi analitik hesab edir ki, Ukrayna ərazi bütövlüyü məsələsində Azərbaycanın tutduğu mövqeyi yaxşı başa düşür:** "Belə xırda məsələlər Azərbaycan-Ukrayna əlaqələrinə hansısa formada ciddi təsir göstərə bilməz. Azərbaycan beynəlxalq təşkilatlar səviyyəsində istər Krım, istər Donetsk və Luqansk məsələsində hər zaman Ukraynanın ərazi bütövlüyünü dəstəkləyib və fikrimcə, bundan sonra da bu tendensiya davam edəcək. Hər iki ölkə arasında mövcud olan bütün sahələrdə əlaqələrin daima qarşılıqlı şəkildə inkişaf etmək imkanları daima mövcuddur".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi;**



# "Mənim atam qəhrəmandır"

## Şəhid ailəsinə, şəhid uşaqlarına, özəlliklə yetişməkdə olan nəslə diqqət və qayğının göstərilməsi günümüzün tələbidir

**Vətən müharibəsində şəhid olmuş qəhrəmanların övladları üçün Azərbaycan Respublikası Müdafiə və Daxili işlər nazirliklərinin dəstəyi və "Fire Land Production"ın təşkilatçılığı ilə reallaşdırılan "Mənim atam qəhrəmandır" layihəsi çərçivəsində növbəti tədbir keçirilib.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, bu tədbirlərin məqsədi torpaqlarımız uğrunda canından keçən qəhrəmanlarımızı bir daha anmaq, onların övladlarına daim xalqımızın diqqət mərkəzində olduqlarını hiss etdirmək, şəhid balalarının səmərəli istirahətini təşkil etməkdir. Budəfəki tədbir əlamətdar bir günə - qardaş Türkiyənin Zəfər bayramına təsadüf edib. Bu səbəbdən qərara alınıb ki, budəfəki tədbir məhz bu Zəfərə, bu əlamətdar günə həsr olunsun. Böyük tarixi kökə malik Azərbaycan-Türkiyə əlaqələrinin əsasında möhkəm dostluq, qardaşlıq və etibarlı strateji tərəfdaşlıq münasibətləri dayanır. Hər iki dövlətin qurucularının - ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır. Qardaş türk xalqının öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" və ulu öndərimiz Heydər Əliyevin "Azərbaycan-Türkiyə bir millət iki dövlətdir" kəlamları Azərbaycan-Türkiyə münasibətlərini xarakterizə edən mükəmməl konsepsiyadır. Bu konsepsiya ötən il 44 günlük Vətən müharibəsində də özünü ən parlaq şəkildə göstərib. İki qardaş ölkənin birliyini, bərabərliyini bir daha əyani nümayiş etdirən budəfəki tədbir Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzindən başlayıb. Ekskursiya avtobuslarında şəhəri gəzən şəhidlərin övladları "Zəfər marşı"nı ifa edərək tədbirə qatılıblar. Onlar üzərində ataların fotoları həkk edilən geyimlərdə, digər uşaqlar üzərində subay şəhidlərimizin rəsmləri, şəhid anaları isə övladlarının şəkli olan və "Mənim qəhrəmanım" yazılmış geyimlərdə tədbirdə iştirak ediblər. Şəhər gəzintisindən sonra "Zaqulba Mangal Steak"ə gələn iştirakçılar burada səmərəli vaxt keçiriblər. Qeyd edək ki, "Zaqulba Mangal Steak"in rəhbərliyi 44 günlük Vətən müharibəsi ərzində əsgərlərimizə daim dəstək olub. Tədbirin rəsmi hissəsində aparıcı Nərgiz Cəlilova qəhrəman övladlarını, şəhid analarını, xanımlarını və digər qonaqları salamladıqdan sonra şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Müdafiə Nazirliyinin zabiti, polkovnik-leytenant Namiq Cavadov çıxış edərək 1918-ci ildə Azərbaycanın ərazi bütövlüyü və Bakının azad olunması uğrunda döyüşlərdə türk hərbçilərinin də qəhrəmanlıqla döyüşərək canlarından keçdiyini, eləcə də Türkiyənin İstiqlal savaşında azərbaycanlıların da vuruşaraq şəhidlik zirvəsinə ucaldığını vurğulayaraq deyib ki, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı, birliyi sarsılmazdır, əbədidir. Bu cür tədbirlərin əhəmiyyətini xüsusi qeyd edən bölmə rəisi bildirib ki, Vətən uğrunda canından keçən oğullarımızın övladları hər birimiz üçün bir əmanətdir, onların işıqlı gələcəyi naminə əlimizdən gələn hər şeyi etməliyik. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəis müavini polis polkovnik-leytenantı Hafiz Təmirov da vurğulayıb ki, heç şübhəsiz, Azərbaycan və Türkiyə birgə addımlayaraq yeni zəfərlər qazanacaq, böyük tarixi nailiyyətlərə imza atacaqlar. Şəhid və qazilərimizin qəhrəmanlıqları isə xalqımız tərəfindən heç vaxt unudulmayacaq, bu cür oğullarımız var olduqca bu Vətən daim yaşayacaqdır. Tədbirin xüsusi qonaqları olan dəyərli sənətçilərimiz Alim Qasımov və qızı Fərqanə Qasımova, Zülfiyyə Xanbabayeva, aparıcılar Leyla Quliyeva, Lalə Azərtaş şəhidlərimizin övladları ilə birlikdə olub, qəhrəmanlarımızın anaları, ailə üzvləri ilə hisslərini bölüşüblər.

**Layihənin əhəmiyyəti barədə danışan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət "Şərq"ə açıqlamasında vurğulayıb ki, şəhid ailəsinin üzvlərinə, özəlliklə də yetişməkdə olan nəslə, şəhid uşaqlarına diqqət və qayğının göstərilməsi günümüzün ən vacib tələblərindən biridir. Çünki onların valideynləri, ataları uzun illərdən sonra Azərbaycan xalqının namusunun təmizlənməsini həyata keçirmiş adamlardır:** "Onlar torpaqlarımızı işğaldan azad etməklə, sadəcə olaraq bir azadlıq hərəkatını tamamlamayıblar. Onlar Azərbaycan xalqının həqiqətən də aşağılanan namusunu təmizləyiblər. Ermənilər bizim üzərimizdə nə oyunlar oynadılar. Qızgəlinlərimizi girov götürdülər, tarixi abidələrimizi dağıtdılar, torpağımızı yağır etdilər. Bütün bunların qarşısını almaq, Azərbaycan xalqının namusunu təmizləmək məhz o adamların payına düşdü. Onlar öz canlarını fəda edərək torpaqlarımızı geri aldılar və düşmənə göz dağı verdilər. Üstəlik də onlar Azərbaycan xalqının yazıq, qorxaq, bacarıqsız olmadığını göstərdilər. Əlbəttə ki, elə valideynlərin, ataların, anaların övladlarına bu cür diqqətin göstərilməsi vacibdir, gərəklidir və mütləqdir. Nəinki Müdafiə Nazirliyi, ayrı-ayrı şirkətlər, ümumiyyətlə, hər bir azərbaycanlı ilk növbədə məhz o şəhidlərimizin bizə əmanət edib getdikləri övladlarına bu diqqəti, qayğını göstərməlidir. Əlbəttə ki, mən şəxsən bu təşəbbüsləri alqışlayıram. Bu cür diqqət göstərənlərin daha çox olmasını arzu edirəm".

**"Nəinki Müdafiə Nazirliyi, ayrı-ayrı şirkətlər, ümumiyyətlə, hər bir azərbaycanlı ilk növbədə məhz o şəhidlərimizin bizə əmanət edib getdikləri övladlarına bu diqqəti, qayğını göstərməlidir"**

**Aynurə Pənahqızı**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Hegemon rus dili artıq tarixdə qalıb

## Xalqlar uzun mübarizədən sonra öz soy-kökünə dönüb

Son 30 ildə postsovet məkanında, xüsusən də Rusiyaya əmək miqrantlarının böyük hissəsinin gəldiyi Mərkəzi Asiya regionunda rus dilinin mövqeyi zəifləyir. Bu barədə Rusiyanın Xarici işlər naziri Sergey Lavrov milli mədəni birliklərin nümayəndələri ilə görüşü zamanı bildirib. Lavrov qeyd edib ki, son dövrlərdə suverenlik qazanan və öz mədəniyyətini qorumaq istəyən ölkələr üçün tamamilə təbii olan milli dilin təbliğinə önəm verilib, eyni zamanda, bir sıra hallarda isə rus dili birdən-birə mövqeyini itirib:

"Təəssüf ki, son 30 ildə rus dili öz mövqeyini çox tez itirməyə başlayıb".

**Lavrovun etirafını "Şərq"ə dəyərləndirən AMEA-nın əməkdaşı, türkoloq-alim Faiq Ələkbərli deyib ki, prosesin bu həddə gəlib çatması təsadüfi deyil. Alimin sözlərinə görə, 30 il müddət heç də az zaman sayılmır:** "Sovetlər birliyinin dağılmasından sonra öz dilinə, mədəniyyətinə önəm verən ölkələr ilk növbədə milli maraqları ön plana qoydular. Düzdür, bu prosesin başlanması asan olmadı. Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Ukrayna, Azərbaycan və digər postsovet ölkələrində milli dilin bərpası xeyli müddət davam etdi. Bu, təxminən 2 əsrə yaxın bölgədə güclü təbliğatı getmiş rus dilinə qarşı mübarizə idi. Məsələ ondadır ki, keçmiş sovet ölkələrində, elə Azərbaycanın özündə 30 il ərzində rus dili müəyyən formalarla təbliğ olunub. Bu gün də postsovet ölkələrində rus dilinin mövqeyini qoruyub saxlamağa çalışanlar var. Bunun üçün müxtəlif təbliğat formalarından istifadə edirlər. Ancaq milli özünüdərkin güclənməsi, milli kimliyin tanınması istər-istəməz əcnəbi dillərin, əsas da rus dilinin sıxışdırılmasına səbəb olur".





**"Rusiya Orta Asiyada, Baltikyanı ölkələrdə, Qafqazda nə qədər canfəşanlıq göstərsə də, milliləşmə prosesinin önünü kəsə bilmir"**

**F.Ələkbərlinin sözlərinə görə, Rusiyanın məqsədi rus dilini yaymaqla imperiya maraqlarını qoruyub saxlamaqdır:** "Bütün bunların müqabilində milli dil ön plana çıxmaqdadır və bu, qaçılmaz prosesdir. Rusiya Orta Asiyada, Baltikyanı ölkələrdə, Qafqazda nə qədər canfəşanlıq göstərsə də, milliləşmə prosesinin önünü kəsə bilmir. Xalqların öz soykökünə dönməsi, milli kimliklərini tərk etməsi Moskvanın rus dili təbliğatını effektsiz edir. Həm də imperiyanın yenidən dirçəldilməsi ümidlərini öldürür. Bu mənada lavrovların əndişəsi anlaşılandır. Narahatlıq odur ki, keçmiş sovet ölkələrində gedən milliləşmə prosesi tədricən Rusiyanın daxilinə sirayət edə bilər. Moskva ehtiyat edir ki, Tatarıstanda, Başqırdıstanda, Yakutiyada, Xakasiya və digər yerlərdə milli dil ön plana çıxar. Kremli təvşişə salan əsas məqam daxildəki çoxsaylı xalqların, əsasən də türklərin milli kimliklərinə sahib çıxma ehtimalıdır".

**İsmayıl Qocayev**

# Əsas səbəb pandemiyadır

## Azərbaycanda rus rubluna tələbatın artması sahibkarlıqla bağlıdır



**“Nəzərə alaq ki, hazırda əsas ticarət dövriyyəmiz, xüsusən iş adamlarımızın ən çox iqtisadi əlaqədə olduğu ölkə qonşu Rusiyadır”**

**Azərbaycanda xarici valyutalara tələbin azaldığı, bunun müqabilində Rusiya rubluna marağın artdığı deyilir. Mərkəzi Bankın məlumatına əsasən, iyul ayında ötən ilin eyni dövrü ilə müqayisədə yalnız rublun banklar tərəfindən satışı və ya əhali tərəfindən alışı artıb.**

Digər üç valyutanın (dollar, avro, funt-sterlinq) banklar və əhali tərəfindən alışı isə azalıb. Ekspertlərə görə, xarici valyutalara tələbin azalması bir neçə səbəblə izah olunur. Onların fikrincə, manatın nisbətən stabil qalması, pandemiya səbəbindən xarici səfərlərin azalması, idxalın həcmində kiçilmələr olması xarici valyutaya tələbi azaldan əsas amillərdir. Rubla tələbin artması isə mövsümi olaraq Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiyaya ixracı ilə əlaqələndirilir.

**İqtisadçı-ekspert Pərviz Heydərov ”Şərq”ə açıqlamasında deyib ki, son dövrlərdə neftin dünya bazarındakı qiyməti xeyli yüksəlib.** Ekspertə görə, ölkədən çıxan valyuta ilə, ölkəyə daxil olan valyuta arasındakı nisbət manatın mövqeyinin möhkəmlənməsinə də təsir göstərib. Lakin xarici valyutalara tələbin azalması birbaşa manatın möhkəmlənməsi, yaxud neftin dünya bazarında bahalaşması ilə bağlı deyil: ”Bunun əsas səbəbi pandemiyadır. Koronavirus səbəbindən xarici ölkələrə səfərlər azalıb, gediş-gəliş yox səviyyəsindədir. Məhdudiyyətlər tam aradan qaldırılmayıb. Nəticədə manatın nisbətən sabit qalması əhalini xarici valyuta alışına sövq etməyib. Yəni belə vaxtda buna ehtiyac duymayıblar. Rus rubluna tələbatın artması isə sahibkarlıqla bağlıdır. Nəzərə alaq ki, hazırda əsas ticarət dövriyyəmiz, xüsusən iş adamlarımızın ən çox iqtisadi əlaqədə olduğu ölkə qonşu Rusiyadır. Ona görə də rus rubluna tələbat digər xarici valyutalardan çoxdur. Əslində rubla tələbat əvvəlki dövrlərdə də çox olub, birdən-birə artmayıb. Amma dollar və avroya olan tələbin kəskin şəkildə azalması fonunda rubla tələbin artması görüntüsü yaranıb”.

İqtisadçı vurğulayıb ki, bundan sonra dollar və avroya tələbin yüksəlməsi iqtisadiyyatın yenidən bərpa olunması tendensiyası ilə bağlıdır: ”Hələ pandemiya davam edir. Müəyyən iqtisadi sahələrin təkrar bağlanma ehtimalı var. Təhlükə birdəfəlik sovuşmayana kimi dollar və avroya tələbat yüksəlməyəcək”.

**İsmayıl Qocayev**

---

## “Xəstəliklərimə, çətinliklərimə dözmədi"

### Şahbaz Quliyev: “Birinci xanımım mən əsirlikdən qayıtdıqdan sonra getdi”




**2020-ci ilin dekabrında erməni girovluğundan azad edilən Şahbaz Quliyevin ikinci dəfə ailə qurması ilə bağlı xəbərlər yayılıb. Onun şad günündən fotolar sosial şəbəkələrdə paylaşılıb.**

Ş.Quliyevin özü ”Şərq”ə hələ toy məclisi təşkil etmədiyini, bunun üçün anasının ilinin çıxmasını gözlədiyini söyləyib: ”Birinci xanımım mən əsirlikdən qayıtdıqdan sonra getdi. O, sağ qayıdacağıma inanmırdı. Burada ona yaxşı hörmət etdilər. Lakin mənim xəstəliklərimə, çətinliklərə dözmədi. Ərizə yazdı, boşandıq. Qızım yanımdadır, burada oxuyacaq. Səhhətimlə bağlı problemlərim var, yardımçı olmağa bir insan lazımdır. Şahbaz Quliyev kefindən yox, zülmündən evlənir. İndi nişanlanmışıq, anamın ili çıxandan sonra toy edəcəm. Bu informasiyanın yayılmasını istəməzdim, çünki ailəmi tənqid edirlər”.

*Xatırladaq ki, 2014-cü ilin iyul ayında əslən Kəlbəcərdən olan Dilqəm Əsgərov və Şahbaz Quliyev ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər. 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatdan sonra beynəlxalq təşkilatların və Rusiya Sülhməramlı Qüvvələri komandanlığının iştirakı ilə aparılmış danışıqlar nəticəsində erməni tərəfi ilə əsir və girovların ”hamının hamıya” prinsipi əsasında dəyişdirilməsi barədə razılıq əldə olunub.*

**Samirə**

---




## 41 nəfər ölüb

### Azərbaycanda daha 3 845 nəfər COVID-19-a yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3 845 yeni yoluxma faktı qeydə alınıb, 3 876 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 41 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 428 736 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 370 002 nəfər müalicə olunaraq sağalıb, 5 677 nəfər vəfat edib, aktiv xəstə sayı 53 057 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 19 102, ötən müddət ərzində isə ümumilikdə 4 481 039 test aparılıb.*

---

# Bizə azad iqtisadi bazar lazımdır

## Ona görə Rusiya ilə inteqrasiyanı genişləndirməkdənsə, daha çox Avropa ölkələri ilə sazişlər imzalanmalıdır



Sahibkarların Rusiyaya məhsul ixracı asanlaşacaq. Bu məqsədlə Azərbaycanla Rusiya arasında idxal-ixrac əməliyyatlarının operativləşdirilməsi, verilmiş müvafiq sertifikatların təhlükəsizliyinin və tamlığının qorunması, elektron məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə iki ölkənin informasiya sistemləri arasında inteqrasiya işləri həyata keçirilir. Bəs, Rusiyaya məhsul ixracının asanlaşması Azərbaycan iqtisadiyyatına necə təsir göstərəcək?

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Nazim Bəydəmirli ”Şərq”ə açıqlamasında bildirib ki, əsas ticarət partnyorumuz olan ölkələrlə ikitərəfli münasibətlərin normallaşması, o cümlədən idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, eləcə də vergi rüsumlarının götürülməsi iqtisadi fəallığı artırır.** Ekspert qeyd edib ki, bu həm də məhsulların maneəsiz gediş-gəlişini asanlaşdırır: ”Ancaq qeyd edim ki, Rusiya elə ölkələrdəndir ki, o, ticarət münasibətlərini sona qədər beynəlxalq hüquqa uyğun aparmır. Müxtəlif dövrlərdə müxtəlif ölkələrə qarşı siyasi problemlər olduqda hər hansı bir siyasi maraqlar çərçivəsində o, ticarətdən bir silah kimi istifadə edir. Heç də yadımızdan çıxmayıb ki, Türkiyə ilə pomidor müharibəsi, eyni zamanda Azərbaycandan kənd təsərrüfatı məhsulları, o cümlədən pomidor və almaya tətbiq edilən məhdudiyyətlər və s. də bunlar arasında idi. Eyni zamanda qeyd edim ki, son zamanlar Rusiya özü yaratdığı gömrük ittifaqını daha da genişləndirir. Əslində bu gömrük ittifaqı Rusiya üçün iqtisadi mahiyyətdən daha çox siyasi mahiyyət daşıyır. Bu ölkələrə məhsul idxalını və ixracını asanlaşdırmaqla, guya öz aləmində digər ölkələrə məhdudiyyətlər tətbiq etməklə təşviq edir. Misal çəkim, bu gün taxıl məhsullarını Rusiya ən çox istehsal və ixrac edən ölkədir. Buğda, arpa, qarğıdalı məhsullarına aksiz vergisi tətbiq edir. Gömrük ittifaqına daxil olmayan ölkələrə isə əlavə aksiz rüsumu tətbiq etməklə, bunu məhdudlaşdırır. Misal üçün, Ermənistana, Qazaxıstana, Belarusa və yaxud Qırğızıstana gömrük rüsumsuz göndərilən mallar Azərbaycana və digər ölkələrə gömrük rüsumu tətbiq edilir. Beləliklə bu, ölkələrdə süni bahalaşma yaradır. Əvvəlcədən də bilirik ki, Azərbaycan taxıl tədarükünün əksər hissəsini Rusiyadan tədarük edir”.

**N.Bəydəmirli hesab edir ki, Rusiya ilə bərabər həm də Avropa İttifaqı ölkələri ilə azad ticarət haqqında anlaşma sazişi imzalanmalıdır:** ”Necə ki, Ermənistan bunu edir. Həmçinin Gürcüstan da edib. Moldova, Ukrayna isə azad ticarət haqqında saziş imzalayıb və onun bazarı daha böyükdür. Hesab edirəm ki, Rusiya ilə inteqrasiyanı genişləndirməkdənsə, daha çox Avropa ölkələri ilə bu mənada belə sazişlər imzalanmalı və beləliklə, Azərbaycan məhsullarının bazara çıxışı asanlaşdırılmalıdır. Çünki Avropa bazarı Rusiya bazarından dəfələrlə böyükdür və imkanları daha sabitdir. Ona görə mən bütün bu addımları siyasi yaxınlaşma kimi hesab edirəm. Fikrimcə, bunlar Qarabağ, sülhməramlılar və son hadisələr fonunda Rusiyanın təzyiqi ilə atılan addımlardır. Ancaq yenə də təkrar edirəm ki, istənilən ölkənin, o cümlədən Rusiya ilə ikitərəfli, yəni iki ölkənin maraqlarına cavab verən əlaqələrin möhkəmləndirilməsinin tərəfdarıyam. Zənnimcə, Azərbaycan hökuməti də bu məsələlərə önəm verməlidir. Bütün bu anlaşmalarda baxmaq lazımdır ki, o bizə və Rusiyaya nə verir. Əgər bizim ölkəmizin maraqlarına uyğundursa, təbii ki, belə sazişləri alqışlamaq lazımdır. Ancaq hesab edirəm ki, Rusiya ilə istənilən bir yöndə çoxtərəfli anlaşmaya getmək lazım deyil. Hətta onların bu birlikləri iqtisadi, sosial mahiyyət daşısa belə həmin birliklər Kreml vasitəsilə yaradılıb və bir təzyiq mexanizmidir”.

**Aynurə Pənahqızı**

Artıq 1 il yarımdır ki, ölkəmiz pandemiya ilə mübarizə aparır. Koronavirusun mənfi təsirləri bir çox sahədə olduğu kimi mənzil bazarından da yan keçmədi. Mənzil bazarında durğunluq müşahidə olundu. Bundan başqa, pandemiya dövrü kirayə mənzillərə təsirsiz ötüşməyib.

# Mənzil bazarında vəziyyət dəyişib



## "Satışların böyük əksəriyyəti kredit üzərindən aparılır"

Bazar üçün avqustun sonu - sentyabrın əvvəlinə düşən "qaynar" mövsüm bu il praktik olaraq hiss olunmur. Ümumiyyətlə, tələbələrin bölgələrə getməsi səbəbindən kirayə evlərə də tələbat azalıb.

**Mənzil bazarındakı vəziyyəti şərh edən Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev vurğulayıb ki, xarakterindən asılı olaraq bütün Azərbaycan xalqı əmlaka bağlıdır. Onun sözlərinə görə, Bakı şəhərinə baxsaq, görərik ki, hər tərəfdə yeni tikili kompleks binalar və hər binada da minimum 2-3 min mənzil var:** "Bu o deməkdir ki, insanların mənzilə marağı daha çoxdur. Türkiyə, Avropa və digər ölkələrdə böyük əksəriyyət insan kirayədə qalmağı üstün tutur. İnsanlar pandemiya dövründə bəzi əngəllər üzündən ev ala bilmədilər. Bankların zəif işləməsi, ölkə sərhədlərinin bağlı olması, virus təhlükəsinə görə ev satanların alıcıları öz evlərinə buraxmaması kimi halların şahidi olduq. Hazırda isə bütün dünyada vəziyyət dəyişib, artıq insanlar koronavirusla bağlı qadağalara öyrəşib.

Ancaq əmlak bazarı Azərbaycanda mövcuddur. Düzdür, indiki vəziyyət əvvəlki kimi deyil, lakin ötən illərə nisbətən yaxşılaşma var. Sadəcə, satışların böyük əksəriyyəti kredit üzərindən aparılır.

Satışı zəif olan sahələr isə istismar müddəti bitmiş köhnə binalardır. Belə mənzillər ipoteka və digər kreditlərə düşə bilmir, onların satışı əvvəlki kimi deyil. Əvvəllər xaricdə, əsasən də Rusiyada yaşayanlar gəlib Bakıdan mənzil alırdılarsa, son 1 il yarımda bu say azalıb. Türkiyədə çoxlu sayda azərbaycanlı vətəndaş ev alıb".

**E.Fərzəliyev bildirib ki, hazırda mənzil bazarında vəziyyət ötən ilə nisbətən daha yaxşıdır:** "Çünki ötən il mənzil bazarı tamamilə çökmüşdü. Hazırda mənzil alışı və satışı qaydasına düşməк üzrədir. Qiymətlərdə isə enmə olmayacaq. Satış bir az sürətlənsə, qiymətlərdə artım müşahidə ediləcək. Çünki son 1 il yarımda tikinti məhsullarının qiymətində artım var. Bu da birbaşa istər yeni tikili, istərsə də həyət evlərinin qiymətinə təsir edir.

Bəzi tikinti materiallarında 30 faiz, bəzilərində isə daha çox artımlar müşahidə olunur. Bu da onu göstərir ki, müəyyən zamandan sonra xüsusən yeni tikili binalardakı qiymət bugünkü kimi olmayacaq. Səbəb həm tikinti materiallarının qiymətindəki bahalaşma, həm də torpaq sahəsi yox kimidir, yəni məhdud saydadır".

**Ekspert kirayə mənzil bazarındakı duruma da toxunub:** "Kirayə mənzil bazarı keçən il sərt karantin olan zaman çökmüşdü. Ali təhsil müəssisələri bağlandı, tələbələr rayonlara getdi, xarici vətəndaşlar da öz ölkələrinə qayıtdılar deyə kirayə mənzil bazarında boşluq yarandı.

Bu gün ucuz kirayə mənzillərin sayı məhdud saydadır, hətta yox dərəcəsindədir. Amma yeni tikili binalardakı bahalı evlərin böyük əksəriyyəti ötənilki sərt karantindən bu yana deməк olar ki, boş vəziyyətdədir. Çünki bahalı evləri kirayə tutan şirkət rəhbərləri, xarici vətəndaşlar artıq Bakıda deyillər.

Ali təhsil müəssisələri açılsa, yoluxma sayı azalsa, xarici tələbələr və iş adamları ölkəmizə gəldikdə bahalı mənzillərin də kirayəsinə dair vəziyyət düzələcək".

**Yeganə Bayramova**

# Avtomobillərin bahalaşmasının iqtisadi əsasları yoxdur



## İlqar Hüseynli: "Ola bilsin ki, avro məkanındakı durumdan irəli gələrək payızda 5-10 faiz civarında bahalaşma müşahidə olunsun"

Ötən ilin sonlarından başlayaraq dünya bazarında avtomobillərin qiymətində müəyyən artım müşahidə edilməyə başlayıb. Bu ilin əvvəlində isə ekspertlər açıqlamışdı ki, 2021-ci ilin sonuna qədər avtonəqliyyat vasitələrinin qiyməti modelindən asılı olaraq 5-10 faiz civarında artacaq. Bahalaşmaya səbəb kimi isə yük konteynerlərinə olan tələbatın artması, pandemiya ilə əlaqədar tətbiq edilən sosial məsafə tədbirləri nəticəsində müəyyən avadanlıqların istehsalının azalması və başqa səbəblər göstərilirdi.

**Bahalaşma ilə bağlı "Şərq"ə danışan nəqliyyat üzrə ekspert İlqar Hüseynli avtomobillərin qiymət artımının iqtisadi səbəblərdən olduğunu düşünmür:** "Ümumiyyətlə, bahalaşmanın proqnozlaşdırılması özünü o zaman doğruldur ki, istehsalçı ölkə və yaxud zavod əvvəlcədən bəyan edib istehsal etdiyi məhsulun qiymətini qaldıracağını deyir.

Ancaq gömrük orqanları tərəfindən hansısa istehsal vasitəsi, o cümlədən avtomobillərin bahalaşmasına dair qabaqcadan anons verməsi artıq onların şəxsi prinsipləri əsasında ola bilər.

Yəni hansısa iqtisadi əsas olmadan bahalaşma proqnozunu verməkləri mümkündür. Lakin bir məqam var: Məsələn, ölkəmizdə devalvasiyanın qarşısı alınıb, ancaq avro məkanında olan devalvasiyalar davam edir. Sadəcə, bizim dollar məkanında 1.70 olan kurs süni şəkildə Mərkəzi Bank tərəfindən qorunub saxlanılır. Ola bilsin ki, avro məkanındakı durumdan irəli gələrək payızda 5-10 faiz civarında bahalaşma müşahidə olunsun.

Kimsə bu durumdan çıxış edərək avtomobillərin və ya digər məhsulların bahalaşmasına dair proqnoz verə bilər.

Çünki aldığımız avtomobillərin böyük əksəriyyəti Avropa məkanından, xüsusilə Almaniya və Fransadan gətirilir. Bir sözlə, avtomobillərin bahalaşmasını avronun devalvasiyası ilə əlaqələndirmək olar. Amma qəti şəkildə mütləq 5 faiz bahalaşma olduğunu demək heç bir iqtisadi əsaslandırılmış proqnoz deyil. Görünür, bu, avtomobillərin daşınması zamanı qiymət siyasətini nəzarətdə saxlayan İqtisadiyyat Nazirliyi və gömrük orqanlarının gəldiyi şəxsi qənaətidir.

Yəni demək istəyirlər ki, istədiyimiz kimi və süni şəkildə avtomobillərin gömrük rüsumu və qiymətlərinə hansısa əlavələr edəcəyik".

**Yeganə**

**Ermənilər öz vandallıqlarını təsdiqləməkdə davam edirlər. "Şərq" oxu.az-a istinadən xəbər verir ki, onlar bu dəfə Basarkeçər rayonunun Qarasu və Zərkənd kəndlərində yangınlar törədiblər. Bununla bağlı görüntülər sosial şəbəkələrdə yayılıb.**



# Ermənilər indi də ekoloji terrora əl atır

## Üzeyir Cəfərov: "Beynəlxalq qurumlarda olan bəzi şəxslər sadəcə fiqurdurlar, onlar nəyi həll ediblər ki?"

*Ermənilərin növbəti ekoloji terroru barədə "Şərq"ə danışan ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert Üzeyir Cəfərov qeyd edib ki, ermənilərin bu vandallıqlarında təəccüblü heç nə yoxdur:* "Bu gün Ermənistanın etdikləri normal məntiqə sığmır. Onlar beynəlxalq hüquq və normaları heç vaxt tanımayıblar. Buna baxmayaraq, dünyanın aparıcı dövlətləri - Amerika, Fransa, Rusiya həmişə Ermənistana xüsusi rəğbət göstərib, maliyyə yardımları ayırıb.

Ölkə başçısı da həmişə qeyd edib ki, ermənilər 30 il ərzində işğalda olan ərazilərimizdə daşı-daş üstündə qoymayıblar.

Növbəti dəfə isə Basarkeçərdə yanğınlar törədərək ekoloji terrorlarını davam etdirirlər. Beynəlxalq qurumlarda olan bəzi şəxslər sadəcə fiqurdurlar, onlar nəyi həll ediblər ki?

Yalandan baş verənlərlə bağlı narahat olduqlarını deməklə günlərini keçirirlər. Bu yaxınlarda BMT-nin yeni Baş katibini təyin etdilər. O, ən məsuliyyətsiz bir şəxsdir. Əfqanıstanın altı üstünə çevrilib, amma yeni BMT baş katibi guya narahat olduğunu bildirir. Heç nəyə görə məsuliyyət daşımırlar".

**Ü.Cəfərovun sözlərinə görə, Ermənistan görür ki, dünyada beynəlxalq hüquq işləmir, kimsə qanunları vecinə almır, Azərbaycan özü deyib, özü eşidir. Ona görə də belə vəhşiliklərindən əl çəkmirlər:** "Dünən Ermənistanın yeni XİN başçısı rusiyalı həmkarı ilə görüşdü. Dərhal bu görüşün əks-sədası sərhədlərimizdə və yaxud qoşunların təmas xəttində özünü büruzə verdi.

Ona görə də yanğınlar və digər ekoloji terrorların hamısı erməni lobbilərinin onlara verdiyi təlimat əsasında həyata keçirilir.

Bütün bunlara təəccüblənmək yerinə, başımızı aşağı salıb işimizi ciddi görməliyik. Kiməsə arxalanmalı deyilik, tək güvəndiyimiz Azərbaycan dövləti, xalqı və hökumətidir.

Kimsə gəlib erməniləri ağıllandıran deyil. 44 günlük Vətən savaşı da onu sübut etdi ki, yeganə güc Azərbaycan xalqının qətiyyəti və ortaya qoyduğu əzmkarlıqdır".

**Yeganə Bayramova**

# Məşhur aktrisa Tamilla Ağamirova vəfat edib



**Azərbaycanın Əməkdar artisti, RSFSR-in Xalq artisti Tamilla Ağamirova 93 yaşında vəfat edib.**

**APA-nın TASS-a istinadən verdiyi xəbərə görə, bu barədə "Romen" teatrından bildirilib.**

Tamilla Ağamirova 1928-ci il mayın 21-də Bakıda anadan olub. Bakı Teatr Məktəbi və MXAT məktəb-studiyasını bitirib. 1952-ci ildən "Romen" Moskva Musiqili-Dram Teatrının qabaqcıl aktrisası olub. Dünyada yeganə olan qaraçı teatrının səhnəsində bir çox parlaq obrazlar canlandırıb.

1957-ci ildə Qriqor Kozintsovun "Don Kixot" filmində rol aldıqdan sonra tanınmağa başlayır və bir sıra filmlərdə baş rola dəvət edilir. Bunların sırasına "Onun böyük ürəyi" (1958, rejissor Əjdər İbrahimov) filmində Səmayə, "Əsl dost" (1959, Tofiq Tağızadə) filmində Bilqeyis, "Koroğlu" (1960, Hüseyn Seyidzadə) filmində Alagöz, "Matteo Falkone" (1960, Tofiq Tağızadə) filmində Cüzeppa, "Zəncirlənmiş adam" (1964, Kamil Rüstəmbəyov) filmində Fatma, "Yenilməz batalyon" (1965, Hüseyn Seyidzadə) filmində musiqi müəllimi obrazlarını aid etmək olar.

Tamilla Ağamirovanın həyat yoldaşı Nikolay Sliçenko olub. O, SSRİ xalq artisti, "Romen" teatrının bədii rəhbəri, qaraçı mahnı və romansların dünyaca məşhur ifaçısı olub və iki ay əvvəl vəfat edib.

## Üzr mesajı gəldi

### Rəqqasə Fatimə izləyicisinin dərsini verdi



**Rəqqasə Fatimə Fətəliyeva bir izləyicisi ilə qalmaqal yaşayıb. Onu təhqir edərək "Səni məclislərə çağıranın ağlı yoxdur. Murdar məxluq" deyən istifadəçinin görüntülərini paylaşıb.**

"Şərq" xəbər verir ki, sənətçinin bu addımından sonra həmin şəxs ondan üzr istəyib. F.Fətəliyeva üzr mesajını səhifəsində yerləşdirib və bir qeyd yazıb: "Sözünün üstündə dayana bilməyən insandır. Qoy, hamıya dərs olsun. Mən də anayam. Özünə hörmət edən xanım kimsəyə o cür sözlər yazmaz. Bunu da paylaşıram ki, bəziləri dərs alsın. Daha bəsdir, tanınmış insanlara bilib-bilmədən ağzınıza gələni yazdınız".

**Samirə**

## Xəbər təsdiqləndi

### Roza Zərgərlinin oğlu Melisa İrmakla nişanlanıb



**Müğənni Roza Zərgərlinin aktyor oğlu Corc Qafarovun "Best Model of Turkey 2020" birincisi Melisa İrmakla nişanlandığı məlum olub.**

"Şərq" xəbər verir ki, bu barədə cütlüyün nişan çəkilişini edən rejissor Nail Naiboğlu məlumat yayıb. Sənətçi N.Naiboğlunun profilində yerləşdirdiyi videonu paylaşaraq xəbəri təsdiqləyib. Qeyd edək ki, ötən ay cütlüyün nişan mərasimi keçirilib.

**Samirə**

## Nazilə Səfərli 8 məşhuru izləmədən çıxardı



**Şairə Nazilə Səfərli bəzi şou nümayəndələrini instaqramda izləmədən çıxarıb.**

"Şərq" xəbər verir ki, o, bu haqda status yazıb: "On nəfəri izləmədən çıxardım. Onlardan 8-i məşhurdur. Məni izləmirsə, niyə "takip" etməliyəm ki?".

**Samirə**

## "Mənə Məhərrəmlikdə toylardan sual ünvanlamayın"

### Cavanşir Məmmədov: "Soruşun ki, 50 ildir sənətdəsən, 16 ildir Əməkdar artistsən, sənə niyə Xalq artisti adı vermirlər?"



**Xeyli vaxtdır Məhərrəmlik ayında toyların keçirilib-keçirilməməsi məsələsi müzakirə olunur. Bu mövzu haqda sənət adamları da fikir bildiriblər. Onların bir qismi Məhərrəmlikdə toyların keçirilməsini məqbul sayır.**

Lakin bunun doğru olmadığını düşünənlər də var. Məsələn, müğənni Xuraman Şuşalı bu ayda toyların, şənliklərin olmasını doğru hesab etməyib. Hətta özünə gələn məclis təklifləri rədd etdiyini söyləyib.

Müğənni-bəstəkar Murad Arif də məsələyə feysbuk profilində münasibət bildirərək Məhərrəmlik ayında toyların dayanmadığını xüsusi vurğulayıb: "Artıq deyə bilərik ki, Azərbaycanda bir tək Ramazan ayında məclislər azalır. Hər kəsin inancına hörmət etmək gözəl duyğudur. Qoy, hər kəs də özünə, ürəyinə yaxın olan dəyərlərini evində, çevrəsində yaşatsın, başqalarının həyatına, seçiminə qarışmasın. Mehribanlıq və sevgiylə qalın".

**Mövzu haqda "Şərq"ə danışan Əməkdar artist Cavanşir Məmmədov deyib ki, dininə, Allaha bağlıdır**: "Ancaq mənə bununla bağlı sual ünvanlamayın. Soruşun ki, 50 ildir sənətdəsən, 16 ildir Əməkdar artistsən, sənə niyə Xalq artisti adı vermirlər? Amma onu bir kənara qoyursunuz. Bütün müğənnilər sözügedən mövzudan danışa bilərlər. Onlara mən cavabdeh deyiləm. Bir də ki, camaat evində ad günü keçirməsin? Bəs televiziyada, radioda konsert proqramları davam edir. "Qurani-Kərim"də yazılıb ki, Məhərrəmlikdə toy etmək olmaz? Bir ilahiyyatçıdan soruşun. Axı həyat dayanır. Bu bizim millətimizin artımının qarşısını almaq üçün düşmənlərimiz tərəfindən səsləndirilən fikirdir. Deyirlər, Ramazan bayramında toy etmək günahdır. Niyə? Xalq uşağına, özünə ad günü keçirir. Yaxşı edir".

**Samirə**



## Qarmon ifaçısı koronavirusa yoluxdu

### Gülbahar Şükürlü səhhəti ilə bağlı vaksin vurdura bilməyib

**Gülbahar Şükürlü koronavirusa yoluxub. Bu haqda axşam.az-a açıqlamasında qarmon ifaçısı özü deyib. O bildirib ki, bir neçə gündür hərarəti var, özünü pis hiss edir:**

"Üç-dörd gündür narahatam. Dünəndən hərarətim qalxıb. Çox da ağır keçirtmirəm. Müalicələrimə başlamışam. Hələ ki, evdə müalicəm davam edir".

Musiqiçi bildirib ki, səhhəti ilə bağlı vaksin vurdura bilməyib:

"Bilirsiniz ki, başımdan əməliyyat olunmuşam. Onla bağlı müalicə alırdım. Ona görə də vaksin hələ vurdurmağa icazə verilmirdi".

## Könül Kərimova ölümdən dönüb

### "Özünüzə yaxşı baxın, hər dəqiqənin, hər saniyənin qədrini bilin"



**Koronaya yoluxan Əməkdar artist Könül Kərimovadan xəbər var.**

"Şərq"in məlumatına görə, o, instaqramda növbəti dəfə fotosunu paylaşıb və bunları yazıb:

"Hər qaranlıq gecənin bir işıqlı sabahı var. Bu günümüzə şükürlər olsun. Bütün sabahlarımız xeyrə açılsın. Sizi sevirəm, özünüzü qoruyun. Özünüzə yaxşı baxın, hər dəqiqənin, hər saniyənin qədrini bilin. Allah hər birinizi qorusun".

Sənətçi müğənni-bəstəkar Hacı Nazimin " Keçmiş olsun. Arada sizə zəng etdim. Bütün nömrələr bağlı idi. Heç vaxt xəstələnməyin" şərhini də cavabsız qoymayıb:

"Buralarda deyildim. Çox uzaqlarda idim. Allah heç birinizin yolunu o tikanlı tərəflərə salmasın. Nə isə... Mən də yarı yola qədər getdim. Dedilər, burada sənə yer yoxdur. Tıxac var idi".

## Müğənnilərin görüntüləri bəyənilmədi

### Nadir və Ayanı yenə tənqid atəşinə tutdular



**Müğənnilər Nadir Qafarzadə və Ayan Babakişiyeva növbəti dəfə tənqid atəşinə tutulublar. Buna səbəb onların paylaşdığı səmimi görüntüləri olub.**

"Şərq" xəbər verir ki, Ayan sözügedən paylaşıma "Dünyanın sonudur. Yazın" şərhini əlavə edib. Sosial şəbəkə istifadəçiləri onların yaxınlığını düzgün hesab etməyiblər.

"Metbex_alemim_": "Nadirin arvadı bunları görmür?".

**"Muhemmed_xedice_":** "Bir-birinizi sevirsiniz? Nadir, ayıbdır. Sənin xanımın var, ona hörmətsizlikdir. Nə deyirsiz, deyin, amma uzaqdan çirkin görünür".

**"Azismishehla":** "Nadir, səni çox istəyirəm, evdə gül kimi həyat yoldaşın var. Ayana görə, uşaqlarının anasına hörmətsizlik etməyə dəyərmi? Öz xanımınla belə sarmaş-dolaş pozalar verərdin ki, düşmənlərin bağrı çatlasın. Heyif!".

**Samirə**



# Axtarış aparılır

## Tamilla Qulaminin qızı və qardaşı oğlu yoxa çıxıb



**Daxili İşlər Nazirliyi "Ümid" partiyasının sədr müavini Tamilla Qulaminin qızı və qardaşı oğlu yoxa çıxması ilə bağlı açıqlama verib.**

Nazirliyin Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov APA-nın sorğusuna cavab olaraq bildirilib ki, Tamilla Qulaminin 15 yaşlı qızı Aişə Məmmədli və 12 yaşlı qardaşı oğlu Famil Qulaminin yoxa çıxması barədə Yasamal Rayon Polis İdarəsinin 28-ci Polis Bolməsinə məlumat daxil olub. Hazırda həmin şəxslərin tapılması istiqamətində əməliyyat axtarış tədbirləri davam etdirilir.

# Qızdırma olduğu zaman panikaya düşmək lazım deyil

## Həkim: "Dad və iybilməni ilk gündən itirənlər xəstəliyi daha yüngül keçirib"



**"COVID xəstələri öz bədənlərində gedən dəyişiklikləri bilməlidir".**

**APA-nın məlumatına görə, bunu Səhiyyə Nazirliyinin mütəxəssisi, terapevt Zakir Quliyev "COVID-19-un ev şəraitində müalicəsi" mövzusunda çıxışında deyib.**

Onun sözlərinə görə, qızdırma olduğu zaman panikaya düşmək lazım deyil. "Temperatur düşmürsə, öskürək dayanmırsa, boğulma müşahidə olunursa, bu zaman təcili yardım çağırmalıdır ki, şəxsin xəstəxanaya yerləşdirilməsi gecikməsin".

O bildirib ki, elə xəstə var, koronavirusa yoluxduqdan sonra karantin müddəti bitənə qədər 2 həftə duş qəbul etmir: "Bununla bağlı bir göstəriş yoxdur. Sadəcə duş alıb, özlərini soyuqdan qorumalıdırlar. Xəstə duşdan sonra kondisioner altında oturursa, özünü soyuğa verirsə, xəstəlik üçün problem yarada bilər. Əks halda bu müddətdə istədikləri qədər duş qəbul edə bilərlər".

Həkim qeyd edib ki, xəstəliklə bağlı bəzən çox maye qəbul edilməsi məsləhət görülür, amma mayenin qəbulu miqdarı da xəstədən xəstəyə dəyişir: "Yaxşı qidalanma dedikdə isə çox yeməkdən söhbət getmir. Bu zaman balanslı qidalanmaq lazımdır. Bundan başqa, aparılan araşdırmalara görə 6 aya qədər dad və iybilməni itirən xəstələr olur. Buna görə mütəmadi olaraq dərman qəbul almaq lazım deyil. Buna görə neçə aydır COVID müalicəsi alanlar var. Müşahidələr göstərib ki, dad və iybilməni ilk gündən itirənlər xəstəliyi daha yüngül keçirib".

# "3 həftə belə davam etsə, xəstəxanalarda yer olmayacaq"

## Vüqar Cavadzadə: "Son 10 gün ərzində 500-ə yaxın şəxs dünyasını dəyişib"



**Əgər yoluxma sayındakı bugünkü rəqəmlər üç həftə də davam etsə, yaxın həftələrdə xəstəxanalarda yer problemi ilə rastlaşa bilərik. Hazırda xəstəxanalarda xəstə sayı çoxdur və demək olar ki, palatalar dolmuş vəziyyətdədirlər. Modul tipli xəstəxanalar açıldıqdan 3-4 gün sonra tamamilə dolurlar.**

Bunu ARB-24-ün "Gündəm" verilişinə açıqlamasında həkim Vüqar Cavadzadə deyib.

O bildirib ki, ölkədə koronavirusun delta ştammı geniş yayılır:

"Bugünkü rəqəmlərdə gündəlik 4 000 yoluxma və 40 nəfərdən artıq şəxsin vəfat etdiyini görürük. Bu, çox ciddi göstəricidir. Təsəvvür edin ki, son 10 gün ərzində 500-ə yaxın şəxs dünyasını dəyişib. Bu, bizdə olan rəsmi rəqəmdir. Lakin nəzərə alaq ki, bir evdə beş koronaviruslu şəxsdən biri test verir. Bugünkü ölüm sayı da real göstəricidən təxminən iki dəfə azdır.

Eyni zamanda yoluxma göstəricisi də 7-8 min civarında olar. Vəziyyət çox ciddidir, evlərdə kifayət qədər ağır xəstələr var. Delta qısa müddətdə ağırlaşma verir və temperaturu salmaq olmur. Xüsusən də yanaşı xəstəliyi olan şəxslər daha tez ağırlaşır və oksigenə tələbatı daha tez başlayır. Aparılan müalicələr isə, demək olar ki, effekt vermir.

Onu da qeyd edim ki, delta ştammı gənclər və kiçik yaşlı uşaqlar arasında özünü çox kəskin əlamətlərlə göstərir. Hətta 3-4 yaşlı uşaqlarda 39-40 dərəcə temperatur müşahidə olunur. Sevindirici hal odur ki, 10 yaşlı uşaqlarda ölüm faizi, demək olar ki, 0 səviyyəsindədir. Həmçinin yaşlı şəxslərlə müqayisədə uşaqlarda deltanın gedişatı müalicəyə daha tez tabe olur".

# Azercell dahi Nizami yaradıcılığını əks etdirən xüsusi bir əlifba dizayn etdi

**Dahi şair və böyük mütəfəkkir Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə 2021-ci il Prezident cənab İlham Əliyevin sərəncamına əsasən "Nizami Gəncəvi İli" elan edilib.**

Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC də bu istiqamətdə təşəbbüslə çıxış edərək maraqlı bir layihə gerçəkləşdirib. Şirkət dünya ədəbiyyatının ən görkəmli klassiklərindən biri olan Nizami Gəncəvinin yaradıcılığına həsr olunmuş xüsusi əlifba dizayn edib. Nizami yaradıcılığını əks etdirən əlifba dahi şairin zəngin irsinin öyrənilməsinə və təbliğinə xidmət edir.




Maraqlı üslubda hazırlanmış əlifbanın hərfləri dahi Nizaminin "Xəmsə"sinə daxil olan poemaların qəhrəmanlarını, bu əsərlərdəki məşhur obrazları və şairin həyatında xüsusi rolu olmuş insanları əks etdirir. Məsələn, "A" hərfi şairin ilk həyat yoldaşı, qıpçaq gözəli Afaqı, "B" hərfi "Yeddi gözəl" poemasındakı Sasani hökmdarı Bəhramı, "F" hərfi isə məşhur Fitnəni, "İ" hərfi qüdrətli sərkərdə İskəndəri tərənnüm edir. Hərflərin hər biri adları çəkilən obrazlara uyğun miniatürlərlə bəzədilib.

Qeyd edək ki, Nizami irsini əks etdirən əlifbadan istifadə edərək xüsusi dizayn olunmuş bu hərflərdən müxtəlif sözlər ərsəyə gətirib sosial şəbəkələrdə paylaşmaq mümkündür.

Bunun üçün sadəcə https://www.nizami880.az/saytına daxil olmaq kifayət edir. Əlifbanın hərflərini, həmçinin WhatsApp, Telegram, Facebook, Instagram kimi sosial şəbəkələrin "gif" bölməsində "Nizami880" və ya "Azercell" açar sözlərinin köməyilə, Telegram tətbiqinin "stiker" bölməsində isə https://t.me/addstickers/azercell linki vasitəsilə əldə etmək olar.

"Azercell Telekom" MMC "Nizami ili" boyunca məşhur klassikə həsr edilmiş müxtəlif təşəbbüslərlə çıxış edib. Şirkətin sosial şəbəkə hesablarında mütəmadi olaraq Nizami Gəncəvinin şeirlərindən parçalar və nəsihətamiz kəlamları paylaşılıb, şairin yaradıcılığını əks etdirən müsabiqələr keçirilib.

Bu yaxınlarda isə Azercell ilə əməkdaşlıq çərçivəsində TikTok-da geniş izləyici kütləsi olan @alex.ivanchak Rubik kubları vasitəsilə dahi mütəfəkkirin möhtəşəm portretini yaradıb. Portretin yaradılmasında 400 kubdan istifadə edilib. https://www.facebook.com/azercell/posts/10158872270558303

"Nizami ili" ilə bağlı yeniliklər və xəbərlər bununla bitmir. Azercell abunəçiləri üçün gələcəkdə müxtəlif hədiyyəli müsabiqələr və kampaniyalar hazırlamaqda davam edir. Odur ki, sosial şəbəkələrdə ölkənin lider mobil operatorunun səhifələrini izləyin. https://www.facebook.com/azercell/posts/10158877146958303.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1630



# 13 il əvvəl Baydeni xilas etmişdi

## Əfqan tərcüməçi indi ABŞ prezidentindən kömək istəyir



**2008-ci ildə Əfqanıstanda köməksiz vəziyyətdə qalmış amerikalı senatorlar - Co Bayden, Con Kerri və Çak Hegeli xilas etməyə gələn tərcüməçi Məhəmmədi Əfqanıstandan təxliyə edilməyib.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, 13 il əvvəl Əfqanıstanın dağlıq vilayətlərindən birində adı çəkilən siyasətçilərin olduğu helikopter qar fırtınası səbəbindən təcili eniş edib. Həmin vaxt ekipaj heyəti bununla bağlı siqnal göndərib. Yardıma gələnlərin sırasında ABŞ-ın 82-ci hava-desant diviziyasının əfqan əsilli tərcüməçisi Məhəmməd də olub. Bu yaxınlarda Məhəmməd Co Baydenə məktub ünvanlayaraq onu xilas etməsini istəyib: **"Salam, cənab prezident. Məni və ailəmi xilas edin. Bizi burada unutmayın".** Ağ Ev sözçüsü Jen Psaki Məhəmmədə təşəkkür edərək onun xilas ediləcəyini və fəaliyyətinin mükafatlandırılacağını söyləyib.

*Qeyd edək ki, Məhəmməd artıq uzun müddətdir ailəsi ilə birgə "Taliban"dan gizlənir. O, "Taliban"ın Kabili ələ keçirməsindən sonra ABŞ-a getmək üçün müraciət etsə də, amerikalı hərbçilər ona ailəsini ölkədə qoymaq şərtilə, yalnız özünün gedə biləcəyini bildirmişdilər.*

**İsmayıl**

# Yırtıcı quşların da nəsli kəsilir

## Tədqiqatçılar bu quşların yox olmasının ətraf mühitə mənfi təsir göstərəcəyi barədə xəbərdarlıq ediblər



**Beynəlxalq Təbiəti Qoruma Birliyi və "BirdLife International" tərəfindən yeni bir araşdırma aparılıb. Elm adamları ətraf mühit üçün böyük əhəmiyyət kəsb edən yırtıcı quşlarla bağlı narahatlıq doğuran açıqlama veriblər.**

"Şərq" "Ntv.com"a istinadən bildirir ki, dünyada 557 yırtıcı növ quşun 30 faizinin nəsli kəsilmək üzrədir.

Tədqiqatçılar bu quşların yox olmasının ətraf mühitə mənfi təsir göstərəcəyi barədə xəbərdarlıq ediblər. Filippin qartalı və Annobon bayquşu da daxil olmaqla on səkkiz növün ciddi şəkildə nəsli kəsilməkdə olduğu bildirilir.

**Meksika Milli Muxtar Universitetinin ornitoloqu Cerardo Ceballos söyləyib:** "Müəyyən bölgələrdə bir çox quş növünün yox olma təhlükəsi var. Məsələn, qızıl qartal Meksikanın milli quşudur, ancaq Meksikada bu növdən az qalıb".

**Yeganə**

# Milli geyimlə 6400 metrlik zirvədə toy etdilər

## Zirvəyə qalxmaq üçün sevgililərə 3 gün lazım olub



**Boliviyalı cütlük Conni Paçeko və Haydi Pako evlilik mərasimlərini Cənubi Amerikanın And silsiləsinin ən yüksək dağı olan İlimanidə keçiriblər.**

Moderator.az xəbər verir ki, bu barədə Ukraynanın "TSN" telekanalı məlumat yayıb. Qeyri-adi toyun dəniz səviyyəsindən 6400 metr yüksəklikdə baş verdiyi qeyd olunur. Zirvəyə qalxmaq üçün sevgililərə 3 gün lazım olub. Ancaq bu, cütlüyün ənənəvi milli qiyafələrdə evlənməsinə mane olmayıb. Lakin toyda çox qonaq iştirak etməyib. Yeni evlənənlərlə birlikdə qarlı dağ zirvəsinə yalnız mərasimin şahidləri və onlara xeyir-dua verən bir alpinist dostları qalxıb.





# Ayı bəsləyən qız

## Veronika Dışka sevimli "Tortuşka"sı ilə səyahəti sevir





**Rusiyada 24 yaşlı Veronika Dışka ayı bəsləyir. Hara gedirsə, ayını da özüylə aparır.**

"Şərq" "Milliiyet.com"a istinadən xəbər verir ki, "Tortuşka" ləqəbli ayı Veronikanı səyahət zamanı müşayiət edir. Avtomobildə sahibəsinin sağ tərəfindəki oturacaqda sakit bir şəkildə əyləşir və yola davam edir. Səyahətə ayı ilə çıxan Veronikanın paylaşdığı fotolar görənləri heyrətləndirir. Bu, bir Himalay ayısıdır. Və sürücü xanımın yanında çox nəşəli olduğu da görünür. Veronika fotonun altında ayıyla bağlı bunları yazıb: "Tortuşka"nı ən çox maraqlandıran sükandır. Bir də burnuyla işığı yandırıb söndürür və bundan keyf alır. Təhlükəsizlik kəməri ilə oynayır. Avtomobillə səyahətləri sevir". V.Dışka bu ayını 2019-cu ildə bir heyvanxanadan aldığını deyir. Ayının yardıma ehtiyacı varmış. Veronika onu heyvanxanadan çıxarıb, müalicə etdirib. "Məndən tez-tez soruşurlar ki, ayı ilə dostluq etməkdən qorxmursan?.. Tam əksi. "Tortuşka" yanımda olanda özümü güvən içində hiss edirəm. Səyahət zamanı ona ağızlıq belə geyindirmirəm. İstəyirəm özünü azad, sərbəst hiss etsin. Daha çox Sibir meşələri tərəflərdə gəzirik. "Tortuşka" arada ağaclara dırmanır, ayı həyatı yaşayır".

**Məlahət**

# Ailəsi şoka düşdü

## İngilis turist sərvətini türk işçiyə bağışladı



**Hər il yay tətilini Türkiyənin Aydın bölgəsindəki Quşadasında keçirən ingilis turist Courtney vəfat etdikdən sonra üzə çıxan vəsiyyəti ailə üzvlərini şoka salıb.**

Vəsiyyətində Courtney var-datının böyük bir qismini Quşadasındakı otelin əməkdaşı Taşkın Daştana bağışladığı yazıbmış. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, bu barədə İngiltərə mediasında məlumat yer almaqdadır. T.Daştan özü bu barədə ingilis mediasına danışıb. İngilis turist Quşadasında dincəldiyi zamanlarda Daştanla aralarında dostluq münasibəti yaranıb. T.Daştan oteldə xidmət sektorunda çalışır. "Bizi öz ailəsinin bir üzvü hesab edirdi. Hətta övladlarımın təhsil haqlarının ödənməsinə də yardım etdi. Buna görə ona ömrümün sonunadək minnətdaram. Çox comərd insandı. Xəstələnəndən sonra daha bura gələ bilmədi. Amma əlaqə saxlayırdıq, danışırdıq" deyən T.Daştan ingilis turistlə Quşadasındakı oteldə tanış olduğunu deyib. T.Daştan ingilis turistin oteldə qaldığı müddətdə pullarını ona əmanət etdiyini də söyləyib: "Pullarını mənə əmanət edirdi, ehtiyac olduqda istəyirdi. Mən bir qəpiyinə də əl vurmazdım. İstəməsə də, hara nə qədər xərclədiyinin hesabını dəqiq yazırdım və özünə təslim edirdim". Ç. Courtney otelin 40-ci otağında qalırmış. Bu otağa da onun adı verilib. T.Daştan ingilis vətəndaşın ona miras qoyduğu pulun miqdarını açıqlamayıb, amma "ömrümün sonunadək çalışmasam da, bu pul mənə yetər", deyib.

**Məlahət**

# İdarə etmək daha asandır

## Model mini avtomobili ilə diqqət çəkib



**Türkiyəli məşhur model Özgə Ulusoy mini avtomobili ilə diqqət çəkib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Ö.Ulusoy İstanbulda Ticarət mərkəzlərinin birinə gələrkən görüntülənib. Onun mavi rəngli, kiçik avtomobili maraq doğurub. Model bu maşını idarə etməyin daha rahat olduğunu söyləyib. O, həmçinin tıxacda hərəkət etməsini də asanlaşdırdığını, avtomobilin elektirik enerjisi ilə çalışdığını deyib. Avtomobilin qiymətinin 190 min türk lirəsi, təxminən 40 000 AZN olduğu öyrənilib.

**Samirə**